

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 34 (24.520)

*5 sentyabr 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*



## Azərbaycan Prezidenti İlham Əliyevin Bişkekdə Ermənistanın Baş naziri ilə görüşü keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində avqustun 31-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüş keçirib.

Liderlər 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvə görüşünün, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın imzaladıqları Birgə Bəyannamənin, həmçinin "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanmasının tarixi əhəmiyyətini vurğulayıblar.

Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən taxıl və digər əmtəənin Azərbaycan ərazisi ilə Ermənistana tranziti, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin qurulması sülh dividendlərinin mühüm əyani təzahürü kimi qeyd edilib. Liderlər, həmçinin işgüzar dairələr arasında təmasları alqışlayıb və qarşılıqlı faydalı iqtisadi, ticarət və enerji əməkdaşlığının daha da genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan ilə Ermənistanın dövlət sərhədinin delimitasiyası üzrə müvafiq dövlət komissiyalarının mühüm rolunu qeyd edib, onların iki ölkə arasında əldə olunmuş razılaşmalara uyğun olaraq öz işlərini davam etdirməsinin vacibliyini vurğulayıblar.

Liderlər Vaşinqton Sülh Zirvə görüşünün mühüm nəticələrindən biri olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) həyata keçirilməsi ilə bağlı növbəti praktiki addımlar barədə müzakirə aparıb və TRIPP boyunca bağlantı layihələrinin əhəmiyyətini qeyd ediblər.

Liderlər parlamentarilər və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı etimadın gücləndirilməsi və daha geniş sülh gündəliyinin dəstəklənməsinə verdikləri töhfələrini qeyd edərək onların iştirakı ilə etimad quruculuğu üzrə təmasları müsbət dəyərləndiriblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan birbaşa ikitərəfli təmaslar vasitəsilə davamlı sülhün daha da möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsi və bağlantıların gücləndirilməsi istiqamətində addımları davam etdirmək barədə razılığa gəliblər.

## Prezident İlham Əliyevin Bişkekdə Qazaxıstan Prezidenti ilə görüşü olub

Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub.

Dövlətimizin başçısı Qazaxıstan Respublikasının yeni parlamentinə – Qurultaya keçirilən ilk seçkilərin uğurla baş tutması münasibətilə təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə ölkədə aparılan genişmiqyaslı islahatlara Qazaxıstan xalqının dəstəyinin növbəti nümunəsi idi.

Qazaxıstan Prezidenti dövlətimizin başçısının göndərdiyi təbrik məktubuna və Azərbaycandan olan müşahidəçilərin bu seçkilərdə fəal iştirakına görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanla Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin dərinləşdirilməsində yüksək səviyyədə qarşılıqlı səfərlərin və təmasların önəmi vurğulandı. Nəqliyyat-logistika məsələləri müzakirə olundu, Orta Dəhlizin əhəmiyyətinə toxunuldu, bu istiqamətdə Azərbaycanla Qazaxıstan arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Dövlət başçıları Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin sammitinin Bakıda keçiriləcəyinə də toxundular.

Söhbət zamanı gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.



## Bişkekdə Azərbaycan və İran prezidentlərinin görüşü olub

Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşü olub.

Məsud Pezeşkian dövlətimizin başçısı ilə görüşlərini və telefon danışıqlarını məmnunluqla xatırladı, İranın üzləşdiyi bu çətin vəziyyətdə Prezident İlham Əliyevin mövqeyinin, nümayiş etdirdiyi dəstəyin, verdiyi başsağlığının, həmçinin Azərbaycan tərəfindən göstərilən humanitar



yardımın İran dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini vurğuladı, bütün bunlara görə bir daha minnətdarlığını bildirdi.

Əlaqələrimizin inkişaf etdirilməsi üçün çox yaxşı imkanların olduğunu deyən İran Prezidenti Azərbaycanla bütün sahələrdə münasibətləri genişləndirməkdə maraqlı olduqlarını qeyd etdi.

Məsud Pezeşkian ölkələrimiz arasında əlaqələrin qardaşlıq və dostluq xarakteri daşıdığını vurğulayaraq İranın bütün qonşu ölkələrlə yaxşı münasibətlərə malik olmaq niyyətində olduğunu dedi.

Dövlətimizin başçısı da, öz növbəsində, İranın üzləşdiyi bu şəraitdə Azərbaycanın yardımının qardaşlıq nümunəsi olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, ölkəmiz İranla bağlı yaranmış vəziyyətin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycanla İran arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Bişkekdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub



Sentyabrın 1-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

Söhbət zamanı Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin qardaşlıq və strateji müttəfiqliyə əsaslandığı vurğulanaraq bütün istiqamətlər üzrə əlaqələrin daha da genişlənməsindən məmnunluq ifadə olundu.

Ölkələrimizin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq həm xoş, həm də çətin günlərdə daim bir-birinin yanında olduğu xüsusi qeyd edildi.

Görüşdə regional sülhün və sabitliyin daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlət başçıları müttəfiqlik əlaqələrimizin perspektivlərini, regional gündəmi və qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə etdilər.

## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379, № 7, maddə 692; 2026, № 6, maddə 518; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 723 nömrəli fərmanı) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "4. Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri" hissəsi üzrə:

Səhifə ➡ 4




# Azərbaycanın ŞƏT gündəliyi:
## çoxtərəfli əməkdaşlıq, regional sülh və bağlantılar

Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi proseslərin sürətlə dəyişdiyi, yeni əməkdaşlıq formatlarının meydana çıxdığı bir vaxtda çoxtərəfli platformalar dövlətlər arasında dialoqun və qarşılıqlı etimadın möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əməkdaşlığının inkişafı ölkəmizin çoxvektorlu xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi diqqəti cəlb edir. Sentyabrın 1-də Bişkekdə keçirilən "ŞƏT plyus" formatında görüşdə Prezident İlham Əliyevin iştirakı və çıxışı da bu əməkdaşlığın yaratdığı imkanların genişliyini nümayiş etdirdi. Dövlət başçısının çıxışında Azərbaycanın ŞƏT ölkələri ilə münasibətlərinin perspektivləri ilə yanaşı, Cənubi Qafqazda formalaşan yeni reallıqlar və beynəlxalq münasibətlər sistemində çoxtərəfliliyin rolu ilə bağlı mühüm mesajlar səsləndirildi.

Xatırlatmaq yerinə düşər ki, bu il yaradılmasının 25-ci ildönümü qeyd edilən Şanxay Əməkdaşlıq Təşkilatı bu gün 10 tamhüquqlu üzvü birləşdirir. ŞƏT-in əhatə etdiyi coğrafiya, təxminən, 36 milyon kvadratkilometr, üzv ölkələrin ümumi əhalisi isə 3,4 milyard nəfərdən çoxdur. Dünya Bankının 2025-ci il məlumatlarına əsasən ŞƏT-in 10 üzv ölkəsinin ümumi nominal ÜDM-i, təxminən, 27,4 trilyon dollar təşkil edir ki, bu da dünya ÜDM-in, təxminən, 23,1 faizinə bərabərdir. Təşkilatın üzvləri arasında Çin, Hindistan və Rusiya kimi qlobal iqtisadi və siyasi güclərlə yanaşı, İran və Pakistan kimi geostrateji əhəmiyyətli dövlətlər, həmçinin Mərkəzi Asiyanın Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan kimi ölkələri yer alır. Belarusun da üzvlüyü ilə ŞƏT-in Avrasiya miqyasında əhatə dairəsi daha da genişlənib. Təşkilatın 10 tamhüquqlu üzvündən əlavə, 2 müşahidəçi ölkəsi və 15 dialoq tərəfdaşı var.

Azərbaycanın ŞƏT ilə əməkdaşlığı artıq uzun müddətdir ki, ardıcıl və dinamik şəkildə inkişaf edir. 2015-ci ildə ŞƏT-in Dövlət Başçıları Şurasının iclasında Azərbaycana "dialoq üzrə tərəfdaş" statusunun verilməsi ilə bağlı qərarın qəbul edilməsi bu əməkdaşlığın institusional əsasını formalaşdırıb. 2016-cı ildə Pekində Azərbaycanın "dialoq üzrə tərəfdaş" statusunu rəsmiləşdirən Memorandumun imzalanması isə münasibətlərin praktiki müstəviyə keçməsinə imkan yaradıb. Sonrakı illərdə Azərbaycan-ŞƏT əlaqələri daha da intensivləşib. 2022-ci ildə Səmərqənddə keçirilən ŞƏT sammitində Prezident İlham Əliyevin fəxri qonaq qismində iştirakı təşkilatın Azərbaycanla əməkdaşlıq platformalarına artan marağının göstəricisi olub. 2024-cü ildə Prezident İlham Əliyevin Astanada ŞƏT-in Zirvə toplantısında iştirakı isə bu əlaqələrə yeni siyasi məzmun qazandırıb. Məhz həmin sammit çərçivəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanamənin imzalanması Azərbaycanın ŞƏT məkanındakı mövqeyinin, eləcə də təşkilata üzv dövlətlərlə ikitərəfli əlaqələrinin əhəmiyyətini daha da artırıb.

2025-ci il sentyabrın 1-də Çinin Tiencin şəhərində keçirilən "ŞƏT plyus" formatında görüşdə Prezident İlham Əliyevin iştirakı və çıxışı Azərbaycanın təşkilatla əməkdaşlığının yeni mərhələyə yüksəldiyini nümayiş etdirib. Beləliklə, Azərbaycanın ŞƏT ilə dialoq tərəfdaşı statusu çərçivəsində başlatdığı əməkdaşlıq zaman keçdikcə siyasi dialoqla məhdudlaşmayaraq iqtisadiyyat, nəqliyyat, enerji, ticarət və digər istiqamətləri əhatə edən daha geniş tərəfdaşlıq modelinə çevrilib. Bu gün Azərbaycan ŞƏT məkanında mühüm siyasi, iqtisadi və nəqliyyat potensialına malik tərəfdaşlardan biri kimi çıxış edir. Ölkəmizin Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, Avropa ilə Asiya arasında etibarlı tranzit imkanları yaratması və regional nəqliyyat-kommunikasiya layihələrində fəal iştirakı Azərbaycanın ŞƏT ölkələri üçün strateji əhəmiyyətini daha da artırır. Bu baxımdan, Azərbaycan-ŞƏT əməkdaşlığının qarşıdakı dövrdə daha geniş sahələri əhatə etməsi və praktiki nəticələrlə zənginləşməsi üçün ciddi potensial mövcuddur.

Təşkilatın əhatə etdiyi coğrafiya Azərbaycanın xarici siyasəti və iqtisadi maraqları baxımından mühüm əhəmiyyət daşıyır. Təşkilata daxil olan dövlətlər dünya iqtisadiyyatında, enerji sektorunda, nəqliyyat və logistika sistemində, eləcə də beynəlxalq siyasətdə mühüm mövqelərə malikdirlər. Azərbaycanın bu ölkələrlə ikitərəfli əlaqələri son illərdə əhəmiyyətli dərəcədə genişlənib. Xüsusilə Çin və Mərkəzi Asiya dövlətləri ilə münasibətlərin inkişafı, nəqliyyat dəhlizləri üzrə əməkdaşlıq və enerji sahəsində həyata keçirilən layihələr Azərbaycanın Avrasiya məkanında rolunu daha da artırır. Bu kontekstdə "ŞƏT plyus" formatı Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Bu platforma təşkilatın üzv dövlətləri ilə yanaşı, tərəfdaş ölkələrin də daha geniş dialoq imkanlarından yararlanmasına şərait yaradır. Azərbaycan üçün isə bu format ŞƏT ölkələri ilə siyasi təmasları dərinləşdirmək, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafına dair mövqelərini bölüşmək və regional proseslərlə bağlı baxışlarını beynəlxalq auditoriyaya çatdırmaq baxımından əlverişli imkan yaradır.

Sentyabrın 1-də Bişkekdə keçirilən "ŞƏT plyus" formatında görüşdə Prezident İlham Əliyevin çıxışında ən diqqətçəkən məqamlardan biri Cənubi Qafqazda yaranmış yeni reallıqlara geniş yer ayırmasıdır.

ardı 3-cü səhifədə



Dövlət başçısının qeyd etdiyi kimi, 30 il davam edən münaqişənin başa çatması regionun gələcəyi üçün yeni səhifə açıb. Uzun müddət münaqişə zonası kimi tanınan Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsi artıq real perspektiv kimi nəzərdən keçirilir. Sitat: ***"Bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular. Beləliklə, çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi sülh zonasına çevrilməkdədir".*** Dövlət başçımızın diqqətə çəkdiyi bu məqam Azərbaycan-ŞƏT əməkdaşlığı baxımından da xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunması regionun Avrasiya nəqliyyat və iqtisadi sisteminə daha sıx inteqrasiyasına imkan verə bilər. Azərbaycanın Ermənistanla ticarət əlaqələrinin genişləndirilməsi, yeni nəqliyyat kommunikasiyalarının yaradılması və tranzit imkanlarının artırılması istiqamətində atdığı addımlar yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, daha geniş regional əməkdaşlıq kontekstində də qiymətləndirilə bilər.

Azərbaycanın coğrafi mövqeyi ölkəni Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında mühüm bağlantı nöqtəsinə çevirir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Zəngəzur dəhlizi və digər layihələr Azərbaycanın regional logistika xəritəsində əhəmiyyətini artırır. Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına çıxışında Xəzər üzərindən keçən marşrutların əhəmiyyəti artdıqca Azərbaycanın tranzit imkanları da ön plana çıxır. Bu baxımdan, ŞƏT ölkələri ilə nəqliyyat və logistika sahəsində əməkdaşlığın genişləndirilməsi Azərbaycanın iqtisadi potensialının daha böyük Avrasiya məkanına inteqrasiyası baxımından mühüm perspektivlər vəd edir. Prezident İlham Əliyevin çıxışında BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası məsələsinə toxunması isə Azərbaycanın beynəlxalq münasibətlər sisteminə baxışını əks etdirən mühüm məqamlardan biridir. Azərbaycan uzun illər ərzində beynəlxalq hüququn norma və prinsiplərinin, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qorunmasının vacibliyini vurğulayıb. Dövlət başçısının ŞƏT platformasında bu məsələyə diqqət yetirməsi də Azərbaycanın çoxtərəflilik prinsipinə verdiyi önəmi göstərir: ***"BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq. Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər".***

Görüşdə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına Azərbaycanın dörd il ərzində rəhbərlik etdiyini xatırlatması da ölkəmizin çoxtərəfli diplomatiyada əldə etdiyi təcrübəyə diqqət çəkir. Azərbaycan bu dövrdə beynəlxalq gündəlikdə inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsi, beynəlxalq hüququn prinsiplərinin təşviqi və qlobal problemlərin həllində daha ədalətli yanaşmanın formalaşdırılması istiqamətində fəal mövqe nümayiş etdirib. Bu baxımdan, ŞƏT Azərbaycan üçün yalnız iqtisadi və təhlükəsizlik məsələlərinin müzakirə edildiyi platforma deyil. Təşkilat, eyni zamanda beynəlxalq münasibətlər sisteminin gələcəyi, regional sabitlik və yeni əməkdaşlıq mexanizmləri ətrafında fikir mübadiləsi aparmaq üçün mühüm meydandır.

Prezident İlham Əliyevin çıxışında



Azərbaycan-Qırğızıstan münasibətlərinə xüsusi yer ayırması da təsadüfi deyil. Dövlət başçısı bir ay əvvəlki dövlət səfəri zamanı Azərbaycan ilə Qırğızıstan arasında Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanmasını iki ölkə arasında əlaqələrin ən yüksək səviyyəyə çatmasının göstəricisi kimi qiymətləndirib. Bakı ilə Bişkek arasında siyasi münasibətlərin yüksək səviyyəsi iqtisadi, humanitar və nəqliyyat sahələrində əməkdaşlığın inkişafı üçün də əlverişli zəmin yaradır.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrinin sistemli şəkildə genişləndirilməsi də ölkəmizin ŞƏT məkanındakı imkanlarını artırır. Bakı üçün Mərkəzi Asiya yalnız iqtisadi tərəfdaşlıq baxımından deyil, Türk dünyasının inteqrasiyası və Avrasiya nəqliyyat bağlantılarının inkişafı baxımından da mühüm əhəmiyyət daşıyır. ŞƏT formatı isə bu istiqamətlərdə əməkdaşlığın daha geniş çoxtərəfli müstəvidə inkişafına əlavə imkanlar verir.

Ümumilikdə, Bişkekdə "ŞƏT plyus" formatında keçirilən görüş bir daha göstərir ki, Azərbaycanın ŞƏT-lə münasibətləri yalnız diplomatik təmaslarla məhdudlaşmır. Rəsmi Bakı bu platformanı siyasi dialoqun genişləndirilməsi, iqtisadi əlaqələrin dərinləşdirilməsi, nəqliyyat və logistika imkanlarının artırılması, regional sülh gündəliyinin təşviqi və çoxtərəflilik prinsipinin möhkəmləndirilməsi baxımından mühüm əməkdaşlıq məkanı kimi qiymətləndirir. Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar, Mərkəzi Asiya dövlətləri ilə möhkəmlənən əlaqələri və Şərq-Qərb Nəqliyyat dəhlizlərində artan rolu ölkəmizin ŞƏT məkanında əhəmiyyətini daha da artırır. Bu mənada, Prezident İlham Əliyevin Bişkekdə çıxışı zamanı səsləndirdiyi fikirlər Azərbaycanın xarici siyasətində mühüm bir xətti – regional sülhü, iqtisadi bağlantıları və çoxtərəfli əməkdaşlığı vahid strateji yanaşmada birləşdirmək siyasətini nümayiş etdirir. Beləliklə, Azərbaycanın ŞƏT ilə əməkdaşlığının qarşıdakı mərhələdə daha da dərinləşməsi üçün siyasi və iqtisadi zəmin kifayət qədər genişdir. Xüsusilə Cənubi Qafqazın sülh məkanına çevrilməsi, Mərkəzi Asiya ilə əlaqələrin güclənməsi və Azərbaycanın tranzit imkanlarının genişlənməsi bu əməkdaşlığa yeni məzmun qazandıra bilər. Bakı üçün əsas hədəf isə dəyişən geosiyasi reallıqlar fonunda milli maraqları qorumaqla yanaşı, regional sabitliyə, iqtisadi inteqrasiyaya və daha ədalətli çoxtərəfli əməkdaşlıq mühitinin formalaşmasına töhfə verməkdir.

# Bişkek görüşü:

## Bakı-İrəvan sülh yolunda yeni mərhələyə doğru

**Azərbaycanın liderliyi ilə son bir ildə regionda cərəyan edən ictimai-siyasi hadisələr belə deməyə əsas verir ki, Cənubi Qafqazda sülhün möhkəmləndirilməsi istiqamətində atılan addımlar artıq siyasi bəyanatlarla məhdudlaşmır, real əməkdaşlıq və qarşılıqlı fayda üzərində qurulan yeni münasibətlər mərhələsinə keçir. Avqustun 31-də Prezident İlham Əliyevin Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü də məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Görüşdə əldə olunmuş razılaşmaların icrası, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, sərhədlərin delimitasiyası və regional bağlantıların inkişafı ilə bağlı məsələlərin müzakirəsi sülh prosesinin praktik məzmununun getdikcə gücləndiyini göstərir.**

Bişkek dialoqu Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin ardıcıl şəkildə davam etdiyini göstərən mühüm siyasi təmas kimi diqqəti cəlb edir. Görüşün əsas xüsusiyyəti ondan ibarətdir ki, tərəflər yalnız siyasi dialoqun davam etdirilməsini deyil, əldə olunmuş razılaşmaların praktiki müstəvidə həyata keçirilməsini də müzakirə ediblər. Ötən il avqustun 8-də Vaşinqton Sülh Zirvə görüşünün nəticələri, Birgə Bəyannamənin imzalanması və sülh sazişinin razılaşdırılmış mətninin paraflanması regionda uzunmüddətli sülhün hüquqi-siyasi əsaslarının formalaşdırılması baxımından mühüm mərhələ təşkil edib. Bu baxımdan, Azərbaycan neft məhsullarının Ermənistana ixracına başlanılması, üçüncü ölkələrdən Ermənistana taxıl və digər əmtəənin respublikamızın ərazisindən tranziti və iki ölkə arasında ticarət əlaqələrinin qurulması xüsusi əhəmiyyət daşıyır. Çünki sülhün davamlılığı yalnız siyasi sənədlərlə deyil, eyni zamanda xalqlar və dövlətlər arasında iqtisadi əlaqələrin genişlənməsi ilə möhkəmlənir. Qarşılıqlı iqtisadi maraqların artması sülhün real və uzunmüddətli dividendlərə çevrilməsinə imkan yaradır.



Bişkek görüşündə dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların fəaliyyətinin davam etdirilməsinin vacibliyinin vurğulanması da prosesin institusional əsaslarının qorunduğunu göstərir. Bu, əldə edilmiş razılaşmaların ardıcıl şəkildə icrası və Azərbaycan-Ermənistan münasibətlərində etimad mühitinin möhkəmləndirilməsi baxımından mühüm amildir. Digər mühüm məsələ isə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun-TRIPP-in həyata keçirilməsi ilə bağlı praktiki addımların müzakirə olunmasıdır. Bu marşrutun reallaşdırılması regionda nəqliyyat və iqtisadi bağlantıların genişlənməsinə, ölkələr arasında yeni əməkdaşlıq imkanlarının yaranmasına və Cənubi Qafqazın daha geniş regional kommunikasiya məkanına çevrilməsinə ciddi töhfə verə bilər. Bağlantı layihələrinin inkişafı yalnız Azərbaycan və Ermənistan üçün deyil, bütövlükdə, regionun iqtisadi inkişafı və təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır.

Görüş çərçivəsində Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın birbaşa təmasların davam etdirilməsi barədə razılığa gəlməsi də diqqətçəkən məqamdır. Birbaşa dialoq problemlərin qarşılıqlı anlaşma yolu ilə həllinə, yaranan məsələlərin operativ müzakirəsinə və etimadın tədricən gücləndirilməsinə şərait yarada bilər. Parlamentarilər və vətəndaş cəmiyyəti nümayəndələri arasında təmasların müsbət qiymətləndirilməsi isə sülh prosesinin yalnız hökumətlər səviyyəsində deyil, cəmiyyətlərarası müstəvidə də dəstəklənməsinin vacibliyini ortaya qoyur.

Ümumilikdə, Bişkek görüşü Azərbaycan-Ermənistan münasibətlərində sülh gündəliyinin artıq yalnız siyasi bəyanatlar müstəvisində deyil, konkret əməkdaşlıq və qarşılıqlı fayda prinsipləri əsasında inkişaf etdiyini göstərir. Əldə olunan razılaşmaların ardıcıl icrası, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat və kommunikasiya imkanlarının artırılması, eləcə də sərhədlərin delimitasiyası istiqamətində irəliləyiş regionda yeni reallıqların möhkəmlənməsinə şərait yaradır. Bu baxımdan, qarşıdakı mərhələdə əsas hədəf əldə edilmiş nəticələrin davamlı prosesə çevrilməsidir. Azərbaycan və Ermənistan arasında formalaşan yeni əməkdaşlıq mühiti yalnız iki ölkə arasındakı münasibətlərin normallaşmasına deyil, bütövlükdə, Cənubi Qafqazın təhlükəsiz, sabit və iqtisadi cəhətdən daha fəal regiona çevrilməsinə xidmət edə bilər. Ən başlıcası isə sülhün real nəticələri xalqların gündəlik həyatında hiss olunmalı, qarşıdurma ilə yadda qalan region tədricən əməkdaşlıq, qarşılıqlı etimad və birgə inkişaf məkanına çevrilməlidir. Bu isə Cənubi Qafqazın gələcəyi üçün yeni və daha nikbin səhifənin açılması deməkdir.

Nail ƏSGƏROV

*(əvvəli 1-ci səhifədə)*

1.1.1. 4.1.1-ci yarımbəndin dördüncü abzasında "güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri" sözləri "müvafiq tədbirlər" sözləri ilə əvəz edilsin;

1.1.2. 4.1.2-ci yarımbəndin mətni aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasının əlverişli coğrafi mövqeyindən istifadə edilərək, regionda istehsal olunan məhsulların xarici və ölkədaxili bazarlara çıxışı sürətləndiriləcəkdir. Bu çərçivədə, yerli məhsulların rəqabətqabiliyyətliliyini artırmaq və daşıma xərclərini optimallaşdırmaq məqsədilə sahibkarlara məqsədli logistik dəstək mexanizmləri tətbiq olunacaqdır. Müntəzəm yükdaşımaların təşkili və nəqliyyat marşrutlarının effektivliyinin yüksəldilməsi ixrac həcminin artmasına, məşğulluğun genişlənməsinə və regionun işgüzar əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların quru yolu ilə ixracı üçün yeni imkanlar yaranacaq, bu imkanlardan hərtərəfli istifadənin stimullaşdırılması məqsədilə müxtəlif güzəştlərin tətbiqi məsələsinə ayrıca qiymətləndirmə aparılmaqla baxılacaqdır.

Həyata keçiriləcək tədbirlər Naxçıvan Muxtar Respublikasının ərazisində iqtisadi aktivliyin, məşğulluğun və ixracın artmasına, iqtisadiyyatda yerli istehsalın rolunun gücləndirilməsinə kömək edəcəkdir.";

1.1.3. 4.1.4-cü yarımbəndin ikinci abzasında "Bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsulları müəyyənləşdiriləcək, onların brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqi diqqətdə saxlanılacaq, kənd" sözləri "Kənd" sözü ilə əvəz edilsin;

1.1.4. 4.1.5-ci yarımbəndin üçüncü abzasından "turizm və rekreasiya zonalarının yaradılması da regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək," sözləri çıxarılsın;

1.1.5. 4.1.7-ci yarımbənd üzrə:

1.1.5.1. ikinci abzasda "ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin" sözləri "əhalinin nəqliyyat infrastrukturuna və nəqliyyat xidmətlərinə əlçatanlığının" sözləri ilə əvəz edilsin;

1.1.5.2. üçüncü abzas ləğv edilsin;

1.1.6. 4.1.8-ci yarımbəndin ikinci abzasında "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin" sözləri "təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.1.7. 4.1.10-cu yarımbəndin yeddinci abzası ləğv edilsin;

1.2. "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsi üzrə:

1.2.1. 8.1.5-ci, 8.2.1-ci, 8.2.2-ci və 8.2.3-cü yarımbəndlər ləğv edilsin;

1.2.2. 8.4.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "İN" akronimindən sonra ", AQTA" akronimi əlavə edilsin;

1.2.3. 8.4.3-cü və 8.5.4-cü yarımbəndlər ləğv edilsin;

1.2.4. 8.7.5-ci yarımbənd üzrə:

1.2.4.1. "Əsas icraçı orqan (qurum) fəaliyyət istiqamətlərinə uyğun olaraq" sütununa "AAYDA" akronimindən sonra ", AZCON" akronimi əlavə edilsin;

1.2.4.2. "Digər icraçılar" sütunundan ", AZCON" akronimi çıxarılsın;

1.2.4.3. "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasında əhalinin nəqliyyat infrastrukturuna və nəqliyyat xidmətlərinə əlçatanlığının artırılması";

1.2.5. 8.7.6-cı yarımbənd ləğv edilsin;

1.2.6. 8.8.2-ci yarımbənd üzrə:

1.2.6.1. "Tədbirin adı" sütununda "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin" sözləri "Təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.2.6.2. "yekun nəticələr" sütununda "Aztəminatlı və xüsusi himayəyə ehtiyacı olan uşaqların təhsil" sözləri "Təhsil" sözü ilə əvəz edilsin;

1.2.7. 8.8.3-cü yarımbəndin "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Sosial cəhətdən həssas əhali qruplarının sosial xidmətlərlə əhatə olunmasının genişləndirilməsi";

1.2.8. 8.8.4-cü yarımbəndin "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Əhalinin fiziki fəallığının artırılması üçün şəraitin yaxşılaşdırılması";

1.2.9. 8.10.13-cü yarımbənd ləğv edilsin;

1.2.10. 8.11.1-ci yarımbəndin "Digər icraçılar" sütununa "İN," akronimindən sonra "ADSEA," akronimi əlavə edilsin;

1.2.11. 8.11.2-ci yarımbənd üzrə:

1.2.11.1. "Tədbirin adı" sütununda "Meşəsalma" sözü "Yaşıllaşdırma işlərinin genişləndirilməsi, meşəsalma" sözləri ilə əvəz edilsin;

1.2.11.2. "aralıq nəticələr" sütununda "Meşəsalma" sözü "Yaşıllaşdırma, meşəsalma" sözləri ilə əvəz edilsin;

1.2.11.3. "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Yaşıllıq sahələrinin və meşə ilə örtülü ərazilərin artırılması";

1.3. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsindən "AZAL – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

# Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir

***Naxçıvan hər zaman lazımi dərəcədə müdafiə olunacaqdır***

***"Bu illər ərzində, əlbəttə ki, ilk növbədə, Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, – özü də ən müasir texnika ilə, – həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir".***

Dövlət başçısının avqustun 11-də Naxçıvana səfəri zamanı dediyi bu fikirləri dinlədikcə fəxrlə yada salırıq ki, respublikamızda milli ordunun yaradılması haqqında ilk qərarı Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən verib. Bu gün də Ordu quruculuğu, şəxsi heyətin döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan məqsədyönlü işlər uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin artırılması və təhlükəsizliyinin təmin olunması Azərbaycan dövlətinin strateji prioritetlərindəndir. Ərazi bütövlüyünün qorunması, hərbi infrastrukturun modernləşdirilməsi, Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və sərhəd mühafizəsinin gücləndirilməsi daim xüsusi diqqət mərkəzindədir. Naxçıvanın Türkiyə və İranla həmsərhəd olması, Ermənistanla isə uzun sərhəd xəttinə (224 km) malik olması onun müdafiəsini hərbi-siyasi baxımdan vacib edir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Qürurla deyə bilərik ki, Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrin də maddi-texniki təminatı və hazırlıq səviyyəsi günün tələbləri nəzərə alınaraq gücləndirilib, yüksək döyüş hazırlığı baxımından müasir dünya ordularından heç də geri qalmayan Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın təhlükəsizliyinin qarantına çevrilib.

***Tarixi əhəmiyyətə malik qərar***

2013-cü ildə muxtar respublikanın hərbi təhlükəsizlik sistemini daha da gücləndirmək üçün tarixi əhəmiyyətə malik addım atıldı. Müasir dövrün reallıqlarını nəzərə alan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev təkcə ölkəmiz üçün deyil, ümumilikdə, Cənubi Qafqaz regionu və bütün Türk dünyası üçün mühüm strateji məkan kimi böyük əhəmiyyət kəsb edən Naxçıvanın müdafiə qabiliyyətinin artırılması məqsədilə Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə qərar qəbul etdi. Ölkəmiz üçün böyük əhəmiyyətə malik olan bu dövlət sənədinin dəqiqliklə icrası nəticəsində, Naxçıvanın müdafiə qabiliyyəti daha da artıb, bir mərkəzdən idarəetmə təkmilləşdirilib və nəticədə daha effektiv müdafiə sistemi qurulub.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev qədim diyara səfəri zamanı Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə danışarkən deyib: ***"Naxçıvanda mənim Sərəncamımla Əlahiddə Ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın – muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək".***

Beynəlxalq hərbi ekspertlərin ümumi rəyi belədir ki, istənilən ordunun döyüş qabiliyyətini, gücünü yalnız hərbi təlimlərdə və müharibədə müəyyənləşdirmək olar. Əlahiddə Ümumqoşun Ordunun istər hərbi təlimlərdə iştirakı zamanı nümayiş etdirdiyi döyüş qabiliyyəti, istərsə də təcavüzkar düşmənin təxribatlarına tutarlı cavab zərbələri onun gücünü və qüdrətini göstərir. Dəfələrlə keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində Əlahiddə Ümumqoşun Ordu NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə eyni səviyyədə güc nümayiş etdirib. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının 2018-ci ildə Günnüt əməliyyatında, 2020-ci ildə Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq tarixə qızıl hərflərlə yazıldı. Onlar zəfər yolunu rəşadətlə keçib, müqəddəs yürüşü Şuşada tamamlayıb, "dəmir yumruğ"un bir parçasına çevrildilər.

***Hakim yüksəkliklərdə etibarlı müdafiə sistemi qurulub***

Əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malik olan Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi qurub. Strateji yüksəkliklərdə belə bir müdafiə sisteminin yaradılması düşmənin hərəkət imkanlarını xeyli məhdudlaşdırır, istənilən təxribatlara adekvat cavab vermək imkanı yaradır. Əlahiddə Ümumqoşun Ordunun ətrafdakı ərazilərə maneəsiz nəzarət etməsi ona həm də istənilən hədəfi dəqiqliklə yox etmək imkanı verir. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində Naxçıvanın sərhədlərində güllə səsi eşidilmədi. Ermənistan mətbuatı bu gün Azərbaycanın əsas ərazisindən ayrı salınmış Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordudan söz açarkən diqqəti, ilk növbədə, təmas xəttindəki hakim yüksəkliklərə, orada qurulmuş müdafiəyə yönəldir. Çətin dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər torpaqlarımızı etibarlı surətdə qoruyurlar. Güclü maddi-texniki təminat və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır.

Bu gün sərhədlərdə xidmət üçün zəruri olan hər bir şərait yaradılıb. Postlar ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq yerləşdirilib, lazımi yerlərdə müxtəlif mühəndis-istehkam qurğuları yaradılıb, ön xəttin müdafiə qabiliyyəti xeyli gücləndirilib. Dayaq məntəqələri və postlar arasında yol və daimi rabitə əlaqələri yaradılıb, onların hər biri müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunub. Müşahidə zonasının daim nəzarətdə saxlanması təmin edilib. Müasir müşahidə cihazları vasitəsilə qarşı tərəfin mövqeləri istənilən hava şəraitində müşahidə olunur.

Maddi-texniki təminatla yanaşı, yüksək dağlıq şəraitdə xidmət keçən şəxsi heyətin döyüş hazırlığına da ciddi diqqət yetirilir. Təmas xətti boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın durmadan möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqətdə saxlanılır, əsgər və zabitlər xidməti vəzifələri şərəf və ləyaqətlə yerinə yetirirlər. Sərhədlərin etibarlı qorunması, ordumuzun arsenalında olan silah sistemləri və hərbi-texniki vasitələrin gündən-günə artırılıb müasirləşdirilməsi qədim diyarın sakinlərində əminlik yaradır. İnsanlarımız Müzəffər Ali Baş Komandana inam, ordumuza güvən hissi ilə ömür sürür. Azərbaycan xalqı 30 illik yolu 44 gündə keçən, dünyaya öz güclü zəkası, siyasi gücü ilə dərs keçən, həm diplomatik, həm də döyüş meydanında düşmənə dərs verən Ali Baş Komandanı, güclü ordusu ilə qürur duyur.

**Ramiyə ƏKBƏROVA**



# Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd olunub





Avqustun 28-də Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan şəhərində tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan və Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxışında 30 avqust – Zəfər bayramının tarixi əhəmiyyətindən danışıb, Azərbaycan-Türkiyə münasibətlərinin sarsılmaz qardaşlıq bağları üzərində qurulduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan xalqı Türkiyənin İstiqlal mübarizəsi





dövründə də qardaş ölkənin yanında olub. Tarixin sınaqlarından keçən bu münasibətlər bu gün strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsində uğurla inkişaf edir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Türkiyə xalqını Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə təbrik edib.

Ceyhun Cəlilov Zəfər bayramının türk xalqının azadlıq və istiqlal mübarizəsinin şanlı səhifələrindən biri olduğunu bildirib. Qeyd edib ki, 1922-ci ildə Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qazanılan Böyük Zəfər Türkiyənin istiqlal mübarizəsində həlledici mərhələ olub və müasir Türkiyə dövlətinin qurulmasına gedən yolu açıb.

Çıxışda Azərbaycan-Türkiyə münasibətlərinin ortaq tarix, dil, mədəniyyət və milli-mənəvi dəyərlərə əsaslandığı vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi nəticəsində əlaqələrin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi, 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi ilə münasibətlərin yeni siyasi və hüquqi məzmun qazandığı diqqətə çatdırılıb. 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana göstərdiyi qətiyyətli siyasi, mənəvi və diplomatik dəstəyin qardaşlığın sarsılmazlığını bir daha nümayiş etdirdiyi bildirilib. Həmçinin Azərbaycanın 8 Noyabr – Zəfər Günü ilə Türkiyənin 30 avqust – Zəfər bayramının mahiyyətində milli birlik, Vətən sevgisi və haqq uğrunda mübarizə əzminin dayandığı qeyd olunub.

Naxçıvanın Azərbaycan-Türkiyə qardaşlığının tarixən formalaşmış mühüm körpülərindən biri olduğu vurğulanıb, Naxçıvanla Türkiyə arasında müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Sonda Türkiyə xalqına möhkəm cansağlığı, firavanlıq və yeni zəfərlər, Azərbaycan və Türkiyə xalqlarına sülh, əmin-amanlıq və rifah arzulanıb.

Tədbir rəsmi ziyafətlə davam edib.

# Naxçıvanda qəbul imtahanlarında yüksək nəticə göstərmiş məzunlarla görüş keçirilib



Sentyabrın 1-də Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini 2025-2026-cı tədris ilində bitirən və ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərən məzunlarla görüş keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Naxçıvan təhsilinin 2025-2026-cı tədris ilində əldə etdiyi nailiyyətləri əks etdirən videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxış edərək yüksək nəticə göstərən məzunları, onların valideynlərini və müəllimlərini təbrik edib. Bildirilib ki, məzunların yüksək nəticələri onların bilik, əzmkarlıq və məqsədyönlü fəaliyyətinin, eyni zamanda valideyn və müəllimlərin fədakar əməyinin nəticəsidir. Bu nailiyyətlər yalnız məzunların şəxsi uğuru deyil, həm də Naxçıvan təhsilinin inkişaf səviyyəsini və regionun yüksək intellektual potensialını nümayiş etdirir.



Qeyd olunub ki, Azərbaycanda təhsilin inkişafı və milli kadr potensialının formalaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən etibarən gənclərin müasir biliklərə yiyələnməsi, yüksək ixtisaslı milli kadrların hazırlanması və azərbaycanlı gənclərin ölkə hüdudlarından kənarda nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları istiqamətində mühüm tədbirlər həyata keçirilib. Vurğulanıb ki, bu strateji siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirilir. Ölkədə təhsil infrastrukturunun yenilənməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, gənclərin inkişafına və dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına göstərilən dövlət dəstəyi insan kapitalının inkişafına verilən yüksək dəyərin ifadəsidir.

Səlahiyyətli nümayəndə Prezident İlham Əliyevin Naxçıvanın təhsil və elm mühitinin inkişafına göstərdiyi diqqətdən də danışıb. Qeyd edib ki, dövlət başçısının 11 avqust 2026-cı ildə Naxçıvana səfərindən bir gün sonra imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamla Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yeni yataqxana kompleksinin tikintisinin tapşırılması regionda gənclərin təhsil imkanlarının genişləndirilməsi və müasir təhsil mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Çıxışda Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək yeni inkişaf mərhələsinə qədəm qoyduğu bildirilib. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal transformasiya və müasir idarəetmə mexanizmlərinin tətbiqinin ölkənin gələcək inkişafı üçün yeni imkanlar yaratdığı diqqətə çatdırılıb. Naxçıvanın da bu inkişaf prosesinin mühüm tərkib hissəsi olduğu vurğulanaraq regionda sosial-iqtisadi inkişafın sürətləndirilməsi, müasir infrastrukturun yaradılması və insan kapitalının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin geniş perspektivlər açdığı bildirilib.

Ceyhun Cəlilov gənclərə müraciət edərək ali məktəbə qəbulun həyatlarının yeni və daha məsuliyyətli mərhələsinin başlanğıcı olduğunu qeyd edib. Gənclər seçdikləri ixtisas üzrə dərin biliklərə yiyələnməyə, daim öz üzərlərində çalışmağa və dövlət tərəfindən yaradılan imkanlardan səmərəli istifadə etməyə çağırılıblar. Bildirilib ki, gənclərin əldə etdikləri bilik və bacarıqları gələcəkdə Azərbaycanın inkişafına və tərəqqisinə mühüm töhfə verəcək.





ardı 6-cı səhifədə







Daha sonra I ixtisas qrupu üzrə muxtar respublika birincisi Gülay Aslanovanın valideyni Nailə Aslanova çıxış edərək övladının yüksək nəticə göstərərək tələbə adını qazanmasından duyduğu qürur və sevinc hisslərini bölüşüb.

O, gənclərin uğurlarında valideyn və müəllimlərin əməyinin mühüm rol oynadığını vurğulayıb.

2025-2026-cı tədris ilində qəbul imtahanlarında muxtar respublika üzrə ən yüksək nəticə – 690,6 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olan Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin məzunu Elsun Əliyev məzunlar adından çıxış edib.

Sonra qəbul imtahanlarında 650-700 bal aralığında nəticə göstərmiş məzunların mükafatlandırılması mərasimi keçirilib. Mükafatlar Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tərəfindən təqdim olunub.

Qeyd edək ki, qəbul imtahanlarında 500-650 bal intervalında nəticə göstərən məzunlara da mükafatlar təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universitetinin Konservatoriyası və universitetin nəzdində Naxçıvan Musiqi Kollecinin tələbələri və solistlərin iştirakı ilə konsert proqramı təqdim olunub.

Sonda yüksək nəticə göstərmiş məzunlarla xatirə fotosu çəkdirilib.



# Elsun Əliyev 690,6 balla Naxçıvan birincisidir: böyük uğurun arxasında illərin zəhməti dayanır

Bəzən bir rəqəm illərlə çəkilən zəhmətin, gecə-gündüz davam edən hazırlığın və böyük bir arzunun ifadəsinə çevrilir. Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin məzunu Elsun Əliyev üçün 690,6 bal məhz belə bir nəticədir. O, qəbul imtahanlarında yüksək nəticə göstərərək Naxçıvan Muxtar Respublikası üzrə birinci olub.

Bu münasibətlə Elsun Əliyevin yaşadığı ünvana gedib, onun və ailə üzvlərinin sevinc və təəssüratlarını öyrəndik. Söhbət zamanı məlum oldu ki, bu uğurun arxasında illərlə davam edən zəhmət, məqsədyönlü hazırlıq, ailə dəstəyi və müəllim əməyi dayanır. Elsun Əliyev buraxılış imtahanında 293,6, qəbul imtahanının ikinci mərhələsində isə 397 olmaqla, ümumilikdə, 690,6 bal toplayıb. Əldə etdiyi nəticədən böyük sevinc və qürur hissi keçirdiyini bildirən Elsun Əliyev bu nailiyyətinin uzunmüddətli zəhmətinin və qarşısına qoyduğu məqsədin nəticəsi olduğunu deyib: "Bu nəticəyə görə çox sevincli və qürurluyam. Yüksək bal toplamağım məktəb illərindən etibarən davamlı şəkildə göstərdiyim səylərin və qarşıma qoyduğum məqsədə doğru inamla irəliləməyimin nəticəsidir. Orta məktəb dövründə RFM, RFO, AMO, SASMO kimi müxtəlif olimpiadalarda bir sıra nailiyyətlər əldə etmişəm. Bununla yanaşı, onlayn platformalarda erudit kimi iştirak edib, müxtəlif yarışlarda uğur qazanaraq birinci yerlərə layiq görülmüşəm. Düşünürəm ki, bütün bu təcrübələr və qazandığım uğurlar da qəbul imtahanında yüksək nəticə göstərməyimdə mühüm rol oynayıb".

"Uşaqlıqdan arzum həkim olmaqdır. İnsanlara kömək etmək, onların sağlamlığı uğrunda çalışmaq mənim üçün çox dəyərli və məsuliyyətli peşədir. Buna görə də gələcəyimi tibb sahəsində görürəm. İxtisas olaraq da Azərbaycan Tibb Universitetinin ixtisasını seçmişəm və həmin ixtisasa qəbul olmuşam. Bu uğurun əldə olunmasında valideynlərimin və müəllimlərimin böyük əməyi var. Onlar hər zaman mənə inanıb və dəstək olublar. Buna görə də hər birinə öz dərin minnətdarlığımı bildirirəm", – deyə Elsun əlavə edib.

O, imtahana hazırlaşan gələcək abituriyentlərə tövsiyə olaraq bildirib ki, qarşılarına məqsəd qoysunlar, vaxtlarını düzgün planlaşdırsınlar və heç vaxt çətinliklərdən qorxmasınlar. Unutmasınlar ki, uğur təsadüf deyil, davamlı zəhmətin




nəticəsidir.

Elsunun bu uğurunda ailəsinin də böyük payı var. Anası Samirə Əliyeva oğlunun əldə etdiyi nəticənin onlar üçün böyük qürur və sevinc mənbəyi olduğunu bildirib: "Bu il övladım Elsun qəbul imtahanında 690,6 bal toplayaraq Naxçıvan Muxtar Respublikası üzrə birinci oldu. Bu gün bir valideyn olaraq həm sevincli, həm də qürurluyam. Bu sevinc hissini mənə yaşatdığı üçün oğlum Elsuna, onun üzərində əməyi olan bütün müəllimlərinə təşəkkürümü bildirirəm.

Hazırda iki övladım da ali təhsilli mütəxəssisdir və həkim kimi çalışırlar. Elsunun da məqsədi onların yolunu davam etdirməkdir. Düşünürəm ki, ata və ana üçün bundan böyük xoşbəxtlik yoxdur. Bir valideyn olaraq dövlətimizin təhsilə göstərdiyi diqqət və qayğıya görə də öz dərin minnətdarlığımı bildirirəm".

Elsunun babası, ziyalı Sabir Quliyev isə nəvəsinin uğurundan danışarkən Ümummilli Lider Heydər Əliyevin ***"Təhsil millətin gələcəyidir"*** fikrini xatırladıb. O qeyd edib ki, hər hansı bir millətin tərəqqisi, ilk növbədə, təhsillə bağlıdır.

Uzun illər pedaqoq kimi çalışan Sabir Quliyev müəllim əməyinin əhəmiyyətindən danışaraq bu barədə yazılmış misraları da xatırladıb:

*"Öyrətmək eşqiylə çəkdiyi zəhmət*
*Bağlıdır tükənməz iradəsinə.*
*Müəllimin şagirdə verdiyi qiymət*
*Yüz illər keçsə də, dəyişməz yenə".*

Özü də 45 ilə yaxın orta məktəbdə müəllim işlədiyini bildirən Sabir Quliyev nəvələrinin uğurundan qürur duyduğunu deyib: "Mən nəvələrimlə fəxr edirəm. Hər üçü də həkimlik peşəsini özləri üçün seçiblər. Mən bu yolda onlara uğurlar arzulayıram. Arzu edirəm ki, onlar gələcəkdə savadlı bir həkim kimi müstəqil dövlətimizə, xalqımıza yüksək səviyyədə xidmət etsinlər. Bununla yanaşı, bu uğurun əldə olunmasında əməyi olan, gecə-gündüz öz biliklərini əsirgəmədən nəvələrimi öyrədən bütün müəllim kollektivinə öz təşəkkürümü bildirirəm".

690,6 ballıq nəticə Elsun Əliyev üçün bir mərhələnin uğurlu sonu, yeni və daha böyük hədəflərin başlanğıcıdır. Qarşıda onu Azərbaycan Tibb Universitetində uzun və məsuliyyətli təhsil yolu gözləyir. Uşaqlıq arzusunu peşəyə çevirmək istəyən Elsun gələcəkdə savadlı, vicdanlı və insanlara fayda verən həkim olmağı qarşısına məqsəd qoyub. Bir məzunun qazandığı bu uğur yalnız bir ailənin sevincinə çevrilməyib. Elsun Əliyevin nəticəsi məqsədə inamın, davamlı zəhmətin və müəllim əməyinin uğura aparan əsas amillər olduğunu bir daha göstərir. Çünki böyük arzuların arxasında səbir, zəhmət və inam dayandıqda nəticə də böyük olur.

**Nail ƏSGƏROV**

# Naxçıvanın enerji təhlükəsizliyi: dayanıqlılıqdan ixrac potensialına

Enerji və logistika maraqlarının kəskinləşdiyi müasir dünyada ölkələrin enerji təhlükəsizliyinin təmin olunması dövlət siyasətində mühüm prioritetlərdən birinə çevrilib. Azərbaycan Respublikası da zəngin və çoxşaxəli enerji resurslarına malik olmaqla yanaşı, davam etdirdiyi etibarlı əməkdaşlıq ənənəsinə uyğun olaraq bu siyasətdə regional müstəvidən qlobal aktor səviyyəsinə yüksəlib. Bu mənada, Prezident İlham Əliyevin həyata keçirdiyi yeni strateji enerji siyasəti Azərbaycanın etibarlı enerji, nəqliyyat və logistika tərəfdaşına çevrilməsini təmin edib. Xəzərdəki zəngin karbohidrogen yataqları ilə yanaşı, ölkəmizin müxtəlif ərazilərində – Abşeron-Bakı, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan iqtisadi rayonlarında bərpa olunan enerji resurslarının istehsalı və ixracı da getdikcə daha böyük əhəmiyyət qazanır. Xüsusilə Zəngəzur dəhlizinin açılması perspektivi bu potensialın daha geniş regional əməkdaşlığa cəlb olunması üçün yeni imkanlar yaradır.

Keçmişdə vahid enerji sisteminə qoşulmuş Naxçıvan SSRİ-nin dağılması və Ermənistan tərəfindən blokadaya alınması nəticəsində uzun illər enerji və nəqliyyat böhranı ilə üzləşib. Azərbaycanın təbii qazının tranzit yolu ilə Naxçıvana çatdırılması, regionun zəngin günəş, hidro və külək potensialının enerji istehsalına cəlb edilməsi ilə enerji təminatında mühüm irəliləyiş əldə olunsa da, nəqliyyat blokadası hələ də aradan qalxmayıb. II Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə yaranan yeni reallıqlar isə Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvanın rolunu daha da artırır. Bu dəhlizin fəaliyyətə başlaması gələcəkdə Azərbaycan-Türkiyə-Avropa xətti üzrə enerji mübadiləsinin genişləndirilməsi, eləcə də Azərbaycanın enerji potensialının digər region ölkələri üçün əlçatanlığının artırılması baxımından mühüm imkanlar yarada bilər. Bütün bunlar Azərbaycanın neft erası sonrası dövrdə də enerji istehsalı və ixracında regional lider mövqeyini qorumaq və daha da möhkəmləndirmək istiqamətində həyata keçirdiyi uzaqgörən siyasətin tərkib hissəsidir.

Bütün bu prioritetlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibəsində bir daha diqqətə çatdırıldı. Dövlət başçısının Azərbaycanın strateji arazisi olan Naxçıvanda enerji məsələsinin əhəmiyyətini regionun müdafiəsi və sənaye potensialının artırılmasından sonra xüsusi olaraq vurğulaması bu sahədən gözləntilərin nə qədər böyük və dövlət əhəmiyyətli olduğunu bir daha ortaya qoydu. Azərbaycanın regionda elektrik enerjisi ilə bağlı problemi olmayan nadir ölkələrdən biri olduğunu qeyd edən Prezident artan risklər fonunda Naxçıvanın davamlı və dayanıqlı enerji təminatının heç vaxt pozulmaması üçün bütün mümkün vasitə və resurslardan istifadə edilməsinin vacibliyini vurğuladı.

Bir vaxtlar, blokadanın ilk illərində yalnız Araz çayı üzərindəki elektrik stansiyasından əldə olunan cəmi 22 meqavat gücə enerji tələbatını qarşılamağa çalışan Naxçıvanın hazırkı generasiya gücü, təqribən, 200 meqavata çatıb. Daxili istehlak tələbatının hazırda, təxminən, 130 meqavat olduğu nəzərə alınarsa, Naxçıvanın elektrik enerjisi ixracı üçün kifayət qədər geniş potensiala malik olduğu görünür. Bu potensialın gələcəkdə daha da artırılması üçün dövlət başçısının müəyyən etdiyi mühüm prioritetlər sırasındadır. Bu hədəflərə çatmaq üçün Naxçıvanın enerji resursları kifayət qədər geniş və şaxəlidir. Təkcə Naxçıvan Sənaye Parkında inşa ediləcək 300 meqavat gücündə istilik elektrik stansiyası mövcud generasiya gücünün əhəmiyyətli dərəcədə artırılmasına imkan verəcək. Bununla yanaşı, regionun zəngin günəş enerjisi və hidroenerji potensialı bərpa olunan enerji sahəsində yeni imkanlar yaradır.

Bu potensialı bu gün reallığa çevirmək və gələcəyə hesablanmış dayanıqlı inkişaf hədəflərində Azərbaycanın mövqeyini daha da gücləndirmək baxımından həyata keçirilən hər bir investisiyanın xüsusi əhəmiyyəti var. Bu sahədə özəl sektorun fəallığını xüsusilə qeyd edən Prezident İlham Əliyev Naxçıvandan böyük həcmdə elektrik enerjisinin ixracının nəzərdə tutulduğunu bildirdi. Dövlət başçısının qeyd etdiyi kimi, təkcə günəş enerjisi üzrə bu potensial ən azı 500 meqavat, hətta 1000 meqavata qədər ola bilər. Hazırda Naxçıvanda artıq istismarda olan bir neçə günəş elektrik stansiyası, tikilməkdə olan 50 meqavat gücündə iki günəş elektrik stansiyası, həmçinin Ordubad rayonunun Tivi kəndində inşa ediləcək 15 meqavat gücündə su elektrik stansiyası bu istiqamətdə qarşıya qoyulan vəzifələrin ilk addımlarıdır. Qarşıdakı mərhələdə isə hədəflər daha genişdir. Bu, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın təkcə nəqliyyat-logistika deyil, eyni zamanda elektrik enerjisi, neft-qaz kəmərləri və fiber-optik kabel xətlərinin qovşağına çevrilməsidir.

Naxçıvanın yaxın keçmişdə yaşadığı blokada çətinlikləri, eləcə də regionda hazırda davam edən proseslər göstərir ki, enerji təhlükəsizliyi sabitliyin və davamlı inkişafın mühüm amillərindən biridir. Enerji təminatının dayanıqlılığı yalnız iqtisadi fəaliyyətin fasiləsizliyi üçün deyil, həm də əhalinin təhlükəsiz və rahat yaşayışı, sənayenin inkişafı və strateji ərazilərin dayanıqlılığının təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Davamlı iqtisadi-sosial sabitlik üçün isə, hər şeydən əvvəl, güclü siyasi iradə, maliyyə resursları və tam müstəqillik lazımdır. Müasir Azərbaycanda bunların hamısı vardır. Bu istiqamətdə həyata keçirilən layihələr və islahatlar da məhz vahid strateji məqsədə – regionda sülhün və təhlükəsizliyin təmin olunmasına, xalqımızın rahat və firavan şəraitdə yaşamasına xidmət edir.

Naxçıvanın enerji sahəsində qarşıdakı mərhələdə atılacaq addımlar bu baxımdan yalnız mövcud tələbatın ödənilməsinə deyil, həm də regionun enerji istehsal edən və ixrac edən mərkəzə çevrilməsinə hesablanıb. Zəngin bərpa olunan enerji potensialı, yeni generasiya layihələri və Zəngəzur dəhlizinin açılması ilə yaranacaq imkanlar Naxçıvanın Azərbaycanın enerji strategiyasında rolunu daha da artıracaq. Beləliklə, vaxtilə blokadanın yaratdığı enerji məhdudiyyətləri ilə üzləşən Naxçıvan gələcəkdə təkcə öz enerji təhlükəsizliyini təmin edən deyil, həm də regional enerji təhlükəsizliyinə töhfə verən mühüm mərkəzlərdən birinə çevrilə bilər.

✍ **Əli CABBAROV**



# Şərurda balıqçılığın yeni mərhələsi: 350 min balıq körpəsi və böyük istehsal planı

Şərurun yolları bu dəfə bizi qədim tarixə malik Dizə kəndinə apardı. Kəndin sakitliyindən keçərək “Arpaçay” Balıqçılıq Təsərrüfatına üz tutduq. Burada bizi özünəməxsus bir mənzərə qarşıladı – suyun sakitliyi, göllərdə üzən balıqlar və bu kiçik təsərrüfatda yenidən canlanan həyat…

Bir vaxtlar fəaliyyətində durğunluq yaranan təsərrüfatda bu gün yeni bir mərhələnin başlanğıcı hiss olunur. Böyüyən balıq körpələri isə bu yenilənmənin ən canlı göstəricisidir.

Diqqətimizi ərazidə bir-birindən aralı yerləşən beş göl çəkir. Bura böyük sənaye müəssisələri kimi geniş bir ərazi deyil. Sakit kənd mühitinin içində yaradılmış bu kiçik təsərrüfatda suyun hərəkətinə, göllərdə üzən balıqlara nəzər saldıqca burada görülən işin miqyasını daha yaxından hiss etmək mümkündür. Burada həyat yalnız torpağın üzərində deyil, suyun altında da davam edir. Balıq körpələrindən gələcəkdə bazara çıxarılacaq məhsula qədər uzanan bu yol isə böyük zəhmət və səbir tələb edir.

Bu canlanmanın necə başladığını, Arpaçayın suyunun balıqçılıq üçün yaratdığı imkanları və təsərrüfatın gələcək planlarını öyrənmək üçün təsərrüfatçı Elvin Mirzəyevlə söhbətləşdik.

“Arpaçay” Balıqçılıq Təsərrüfatının əsası 2010-cu ildə qoyulub. 2019-cu ildə burada bərpa işləri aparılıb, yerli sazan balıqlarının təbii yolla artırılması və mayalanması həyata keçirilib, damazlıq balıqlar saxlanılıb. Lakin sonrakı illərdə müəyyən coğrafi amillərlə əlaqədar təsərrüfat fəaliyyətində durğunluq yaranıb.

İndi isə burada yenidən həyat canlanır. Bu ilin iyun ayının əvvəlindən etibarən təsərrüfata 350 min amur və sazan balığı körpəsi buraxılıb. Hazırda göllərdə böyüyən bu balıq körpələrinin çəkisi artıq 3-5 qrama çatıb. Bir neçə ay əvvəl suya buraxılan kiçik balıqlar tədricən böyüyərək təsərrüfatın gələcək məhsuluna çevrilirlər.





Elvin Mirzəyevin sözlərinə görə, təsərrüfatın əsas üstünlüklərindən biri Arpaçayın suyunun təbii xüsusiyyətləridir. Minerallarla zəngin olan suyun bir litrində 11-12 milliqram oksigen mövcuddur. Bu göstərici xüsusilə forel balığının yetişdirilməsi üçün əlverişli şərait yaradır. Belə ki, forel üçün orta hesabla 8-9 milliqram oksigen tələb olunur. Arpaçayın suyundakı yüksək oksigen miqdarı isə balıqların inkişafı və sağlam böyüməsi üçün əlavə imkan yaradır.

Elvin Mirzəyev qeyd etdi ki, Arpaçayın bu təbii üstünlükləri təsərrüfatın gələcək planlarında da öz əksini tapır. Onun sözlərinə görə, qarşıdakı mövsümdə burada ən azı 50 ton balıq istehsalı nəzərdə tutulur. Təsərrüfatda mövcud olan 16 yetişdirmə hovuzu isə bu prosesin əsas mərhələlərindən birini təşkil edir. Mayalanmış balıq yumurtalarının inkubasiya ediləcəyi hovuzlarda çoxaltma prosesi aparılacaq, balıq körpələri 3-5 qramlıq mərhələyə çatdıqdan sonra digər hovuzlara köçürülərək böyüdüləcək.

Təsərrüfat sahibi deyir ki, forellərin yetişdirilməsinə bu ilin noyabr ayında başlanılacaq və 10 ay sonra satışa çıxarılması planlaşdırılır. Bu müddət ərzində balıqların 300-400 qram çəkiyə çatdırılması nəzərdə tutulur.

Həmsöhbətim bildirdi ki, forellərin yetişdirilməsində təbii mühitin imkanlarından istifadə edilir. Elvin Mirzəyev qeyd etdi ki, balıqların qidalanmasının bir hissəsi əlavə yemlə təmin olunsa da, digər hissəsi su hövzəsindəki təbii yemlər hesabına formalaşır. Məhz bu təbii qidalanmanın balığın dadında və keyfiyyətində özünü göstərdiyini deyən təsərrüfat sahibi Arpaçayın suyunda yetişdirilən forellərin keyfiyyəti və özünəməxsus dadı ilə gələcəkdə ölkə bazarında layiqli yer tutacağına inandığını, bazarda fərqlənən məhsul təqdim edəcəklərinə ümid etdiyini söylədi.

O qeyd etdi ki, məhsulun həm təsərrüfatda, həm də bazarlara çıxarılmaqla satışı həyata keçiriləcək. Satışdan əldə olunacaq gəlirin isə növbəti mərhələdə istehsal həcminin artırılmasına və təsərrüfatın daha da inkişaf etdirilməsinə yönəldilməsi nəzərdə tutulur.

Təsərrüfatda balıq yetişdirilməsi yalnız forellərlə məhdudlaşmır. Sazan və amurlar da təsərrüfatın gələcək istehsal planlarında mühüm yer tutur. Elvin Mirzəyev bu balıqların satışının 1,5-2 kiloqram çəkiyə çatdıqdan sonra həyata keçiriləcəyini bildirdi. Bunun üçün, təxminən, 1-1,5 il vaxt lazım olduğunu deyən təsərrüfat sahibi hazırda sazan və amurların da təbii yemlərlə bəsləndiyini vurğuladı.

Ümumilikdə, beş göl və 16 yetişdirmə hovuzundan ibarət təsərrüfatın qarşısında böyük istehsal hədəfləri dayanır. Təsərrüfat sahibinin sözlərinə görə, iki göldə, ümumilikdə, 96 tona yaxın forel yetişdirilməsi nəzərdə tutulur. Digər göllərdə isə sazan, amur və başqa yerli balıq növlərinin artırılması planlaşdırılır. Bu göllər, təxminən, 130 ton balıq tutumuna malikdir.

Bu gün göllərin sakit sularında üzən balıq körpələri hələ kiçikdir. Lakin onların hər biri təsərrüfatın sabahına hesablanan bir ümiddir. Qarşıdakı dövrdə əvvəlcə forel, daha sonra isə sazan və amur satışa çıxarılması ilə istehsalın genişləndirilməsi planlaşdırılır. Kiçik bir kənd təsərrüfatında başlayan bu işin hədəfləri isə getdikcə böyüyür.

Balıqçılıq və akvakultura sahəsinin inkişafına göstərilən dövlət qayğısı da bu prosesə yeni imkanlar qazandırır. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” ilə qarşıdakı illər üçün mühüm hədəflər müəyyənləşdirilib. “Arpaçay” Balıqçılıq Təsərrüfatında görülən işlər də bu istiqamətdə atılan addımlardan biridir.

Arpaçayın suları axdıqca həyat da öz axarında davam edir. Bu gün göllərdə üzən kiçik balıqların sabah ölkə bazarlarına çıxarılacaq keyfiyyətli məhsula çevrilməsi gözlənilir. Kəndlinin zəhmətinin izlərini özündə yaşadan bu məkan gələcəkdə həm istehsalı, həm də turizm imkanları ilə daha çox insanın yolunu Şərura sala bilər.

✍ **Zəhra VƏLİYEVA**

# Haqqın yazan əli ilə...

## Xanəli Kərimlinin 75 illik ömrünə və yeni poetik kitabına bir baxış

*Bəzi insanlar haqqında danışanda, ilk növbədə, onların gördüyü işlər yada düşür. Bəziləri haqqında danışmağa başlayanda isə əvvəlcə şəxsiyyətləri xatırlanır. Çünki onların ömür yolu ilə xarakteri, sözü ilə əməli, yaradıcılığı ilə insanlığı arasında görünməz, amma möhkəm bir bağ olur.*

### Xanəli Kərimli də belə söz adamlarındandır

Onu illərdir, tanıyanlar yaxşı bilir: Xanəli müəllim harada görünürsə, orada ona münasibətdə xüsusi bir ehtiram var. Bu ehtiram yalnız şairə, alimə, müəllimə göstərilən hörmət deyil. Bu, illər ərzində öz davranışı, mövqeyi, sözü və əqidəsi ilə qazandığı insani nüfuzun ifadəsidir. Onu qəbul edənlər də, söhbət edənlər də, tələbələri də, həmkarları da bu münasibəti təsadüfən formalaşdırmayıblar.

Yetmiş beş il insan ömrü üçün böyük bir zaman kəsiyidir. Bu illərin hər biri özündə bir xatirə, bir zəhmət, bir ayrılıq, bir sevinc, bir mübarizə daşıyır. Ancaq yaradıcı insan üçün yaşanan illərin hesabı bir qədər başqadır. Onun ömrünü yalnız illərlə deyil, yaratdığı əsərlərlə, yetişdirdiyi insanlarla, dediyi sözlərlə ölçmək mümkündür. Xanəli Kərimlinin 75 illik ömür yolu da belə bir mənzərə yaradır: şair, alim, pedaqoq və vətəndaş kimi bir-birini tamamlayan dörd istiqamət.

### Kənddən başlayan söz yolu

1951-ci il noyabrın 27-də Şahbuz rayonunun Mahmudoba kəndində dünyaya göz açan Xanəli Kərimlinin sözə münasibətinin kökləri elə uşaqlıq illərinə gedib çıxır. Sadə kənd mühiti, ailə, xalq yaradıcılığı, ata-babadan gələn söz yaddaşı onun gələcək yaradıcılığının ilkin məktəbi olub. Özü də yazırdı ki, doğulduğu ailə təbiəti etibarilə bir növ “folklor məktəbi” idi. Bu məktəbdə kitabdan əvvəl həyat vardı. Nağıl, rəvayət, bayatı, xalq sözü, ata nəsihəti vardı. Bəlkə də, sonralar onun şeirlərindəki sadəlik, xalq danışığına yaxınlıq, hikmətə meyil bir qədər də buradan gəlirdi.

Xanəli Kərimli ali təhsilini filologiya sahəsində alıb. Sonralar elmi fəaliyyətini davam etdirərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi qazanıb, dosent elmi adını alıb. Uzun illər Naxçıvan Dövlət Universitetində pedaqoji və elmi fəaliyyət göstərib. Universitetin ilk mətbu orqanı olan “Fikir” qəzetinin redaktoru olub, müxtəlif məsul vəzifələrdə çalışıb, yüzlərlə tələbənin müəllimi olub. Onun üçün müəllimlik, sadəcə, peşə olmayıb. Bu fəaliyyət həm də insan yetişdirmək missiyası olub. Bəlkə, elə buna görədir ki, Xanəli Kərimlinin adı çəkiləndə onu yalnız “şair” adlandırmaq kifayət etmir. Onun yaradıcılığının arxasında uzun illərin müəllimlik təcrübəsi, ədəbiyyatşünas düşüncəsi və həyat müşahidələri dayanır.

### Şairliyə çevrilən həyat

Xanəli Kərimli poeziyaya birdən-birə gəlməyib. Sözlə münasibəti illər ərzində formalaşıb, düşüncə ilə zənginləşib, həyat təcrübəsi ilə dərinləşib. İlk kitabı “Ay işığında” 1998-ci ildə nəşr olunub. Ardınca “Anamdan məktub”, “Bu da bir nağıldı…”, “Mənə elə gəlir ki…”, “Duyğularım, düşüncələrim”, “Mənim könlüm bir ümmandır”, “Payız duyğuları”, “Tanrı müjdəsi” və başqa kitabları işıq üzü görüb. Əsərləri Azərbaycanla yanaşı, İran və Türkiyədə də nəşr olunub, şeirləri müxtəlif dillərə tərcümə edilib. Onun yaradıcılığı haqqında müxtəlif illərdə məqalələr toplusu, monoqrafiyalar hazırlanması da təsadüfi deyil. Çünki Xanəli Kərimlinin poeziyasında yalnız fərdi duyğular deyil, insanı və cəmiyyəti düşündürən məsələlər var. O özünü və dünyanı sorğusuala çəkən şairdir. Bəzən insanın özünə, bəzən zamana, bəzən cəmiyyətə, bəzən də haqqa ünvanlanan suallar onun şeirlərinin əsas ruhunu təşkil edir. Yeni kitabı – “Mən haqqın yazan əliyəm” də məhz bu baxımdan şairin yaradıcılıq yolunun məntiqi davamı təsiri bağışlayır.

### “Mən haqqın yazan əliyəm...”

2026-cı ildə “Qanun” nəşriyyatında çap olunan 144 səhifəlik kitab şairin anadan olmasının 75 illiyinə təsadüf edir. Topluda onun son illərdə qələmə aldığı şeirlər yer alıb. Kitabın adı təsadüfi seçilməyib. “Mən haqqın yazan əliyəm…” – deyən şair burada öz yaradıcılıq kredosunu sanki bir neçə sözlə ifadə edir. O, qələmi yalnız şeir yazmaq vasitəsi kimi deyil, haqqa, həqiqətə, insanlığa münasibətini ifadə edən mənəvi məsuliyyət kimi qəbul edir. Kitabın ilk şeirindəki:

*Mən Tanrının müjdəçisi,*
*Haqqın çarpan ürəyiyəm…*

misraları ilə başlayan poetik düşüncə sonrakı misralarda daha da dərinləşir və nəhayət:

*Haqq üçün olmuşam fəda…*
*Mən haqqın yazan əliyəm*

fikri ilə öz poetik zirvəsinə çatır. Bu sadəcə, poetik ifadə deyil. Xanəli Kərimlinin illər boyu formalaşdırdığı sənət və həyat mövqeyinin ümumiləşdirilməsidir.

Yeni kitabdakı şeirlərdə diqqəti cəlb edən əsas məqamlardan biri zaman anlayışıdır. Şair yaşadığı



illərə kənardan baxmağı bacarır. Keçmişi xatırlayır, insan münasibətlərini ölçüb-biçir, həyatın gətirdiyi dəyişikliklərə nəzər salır. “Vaxtında duymadıq biz bu hikməti” şeirinin özü belə kitabın ümumi fəlsəfi ruhunu açmağa kifayət edir. Burada şair insan ömrünün ən böyük sərvətinin nə olduğunu soruşur. Kitabların, dəftərlərin, qələmin bir zamanlar həyatın ayrılmaz hissəsi olduğunu, sonra isə zaman keçdikcə insanların və əşyaların öz yerini dəyişdiyini düşünür. Və sonda çox düşündürücü nəticəyə gəlir:

*Demə, oxunmalı ən böyük kitab*
*Zamanın özüymüş zaman dilində…*

Bu misralar kamil yaşında olan şairin həyat təcrübəsindən doğan qənaət kimi səslənir. Çünki müəyyən yaşdan sonra insan üçün ən böyük kitab, doğrudan da, həyatın özüdür.

### Özünə sual verən şair

Kitabdakı “Dördlüklər” bölməsi də Xanəli Kərimlinin düşüncə dünyasının başqa bir tərəfini göstərir. Dörd misralıq kiçik poetik parçalar bəzən bütöv bir həyat fəlsəfəsini ifadə edir:

*Bu dünyanın dadı nə?*
*Ünvanı nə, adı nə?*
*Dünya bir dəyirmandı,*
*Yaxını nə, yadı nə.*

Bu sadə görünən suallar, əslində, çox böyük bir düşüncənin başlanğıcıdır. Şairin poetikası burada özünəməxsus xüsusiyyət qazanır: böyük fəlsəfi fikirləri mürəkkəb ifadələrlə deyil, xalq dilinin sadəliyi və yığcamlığı ilə çatdırmaq. Elə buna görə də onun bəzi misraları şeirdən çıxıb hikmətə çevrilir.

### Şeirdən hikmətə

Kitabın sonrakı səhifələrində yer alan “Mənə elə gəlir ki…” bölməsi isə şairin artıq yalnız poetik obrazlarla deyil, birbaşa düşüncə və mühakimələrlə danışdığını göstərir. “Əsl sənət əsərinin yaranması üçün üç şey lazımdır: istedad, zəhmət və şəxsiyyət”, – deyir şair. Bu fikir təsadüfi deyil. Çünki Xanəli Kərimlinin yaradıcılıq yolu bu üç anlayışın vəhdəti üzərində qurulub. İstedad olmadan söz yaranmır, zəhmət olmadan istedad kamilləşmir, şəxsiyyət olmadan isə sözün mənəvi çəkisi azalır. Onun başqa bir fikri də diqqət çəkir: “Şəxsiyyətini qorumaq istəyirsənsə, üç şeydən uzaq ol: nəfsdən, satqınlıqdan və yalan danışmaqdan”. Bu cümlələrə şairin həyat yolu kontekstində baxanda onların yalnız aforizm olmadığını görmək mümkündür. Bunlar həm də uzun ömrün gətirdiyi mənəvi nəticələrdir.

### Vətən sevgisi – poetik mövqedən vətəndaş mövqeyinə

Xanəli Kərimli yaradıcılığında Vətən mövzusu da xüsusi yer tutur. Onun Vətənə münasibəti yalnız pafoslu ifadələrdən ibarət deyil. Tarix, milli yaddaş, Türk dünyası, Azərbaycan torpaqları, Qarabağ və milli kimlik onun poetik düşüncəsinin müxtəlif qatlarında görünür. “Turan qalxır ayağa” şeirində Türk dünyasına bağlılıq açıq şəkildə ifadə olunur. “Bir yatmış vulkandır qosqoca Turan” şeirində isə tarixə, torpağa və milli yaddaşa daha sərt və mübariz münasibət hiss edilir.

Bu şeirlərdə şairin mövqeyi aydındır: Vətən sevgisi yalnız duyğu deyil, həm də yaddaş və məsuliyyətdir. Bu baxımdan, Xanəli Kərimlinin yaradıcılığı haqqında illər əvvəl səsləndirilmiş “vətəndaşlıq lirikasının əsas yaradıcılarından biri” qiymətləndirməsi onun poeziyasının əsas istiqamətlərindən birini dəqiq ifadə edir.

### İnsanı yazan şair

Xanəli Kərimlinin poeziyasını yalnız Vətən və milli düşüncə ilə məhdudlaşdırmaq olmaz. Onun şeirlərinin ən güclü tərəflərindən biri insana münasibətidir. Dostluq, sədaqət, etibar, xəyanət, sevgi, tənhalıq, qocalıq, ömür, peşmanlıq – bütün bunlar onun şeirlərində bir-biri ilə səsləşir. “Yaxşıdır” şeirində:

*Ələ gəlməz keçən gündən,*
*Duyulmayan səsdən, ündən,*
*Ümid yoxsa bir könüldən*
*Sabaha güman yaxşıdır.*

– deyərkən şair həyatın ən ağır məqamında belə insanın sabaha olan inamını qorumağa çağırır. “Kim bilir…” şeirində isə başqa bir ovqat var. Burada itirilmiş hisslərin, dəyişən insanın, zamanla daşlaşan qəlbin ağrısı duyulur. Bu, artıq 75 yaşın şeiridir. Gəncliyin sevgisini xatırlayan, amma ona yalnız xatirə kimi baxmayan; keçmişlə bu gün arasında mənəvi məsafəni ölçən bir insanın şeiridir.

### Qələm, söz və məsuliyyət

Xanəli Kərimlinin yaradıcılığında söz müqəddəs anlayışdır. “Söz uca Tanrıdır…” şeirində o, müasir cəmiyyətdə sözün dəyərinin azalmasından, hər kəsin özünü söz meydanının sahibi hesab etməsindən narahatlığını ifadə edir. Bu şeirdə satirik çalarlarla yanaşı, ciddi mənəvi xəbərdarlıq da var. Şairə görə söz demək hüququ qazanmaq üçün yalnız qələm sahibi olmaq kifayət deyil. Bunun üçün ədəb, vicdan, məsuliyyət və həqiqət qarşısında dayanmaq cəsarəti lazımdır. Bu mövqe onun “Mənə elə gəlir ki…” bölməsindəki fikirləri ilə də səsləşir. Beləliklə, kitabın müxtəlif səhifələrində ayrı-ayrı janrlarda, fərqli ovqatlarda görünən Xanəli Kərimli, əslində, eyni mövqedə dayanır: sözün məsuliyyətini dərk edən insan mövqeyində.

### 75 ilin yekunu deyil, yeni mərhələsi

Xanəli Kərimlinin 75 illiyinə həsr olunan bu kitabı yalnız yubiley nəşri kimi qiymətləndirmək düzgün olmaz. Bu kitab daha çox bir ömrün poetik hesabatıdır. Şair geriyə baxır, gördüklərini xatırlayır, yaşadıqlarını ölçür, insanları və zamanları dəyərləndirir. Amma bütün bunları, sadəcə, xatirə üçün etmir. Keçmişdən gələcəyə söz aparmaq istəyir. Bəlkə də, kitabın ən qiymətli cəhətlərindən biri budur. Yubiley yaşında şair həyatın sonuna deyil, sözün davamına baxır. Çünki əsl sənətkar üçün yaş həddi yaradıcılığın sərhədi deyil. Əksinə, ömrün müəyyən mərhələsində insanın gördükləri, yaşadıqları, itirdikləri və qazandıqları onun sözünü daha da dərinləşdirir. Xanəli Kərimlinin yeni kitabında da bunu görmək mümkündür. Burada gəncliyin coşqusu ilə müdrikliyin sakitliyi, Vətən sevgisi ilə insan sevgisi, haqq axtarışı ilə həyatın sərt gerçəklikləri bir aradadır. Və bütün bu yolların sonunda yenə söz dayanır.

### Sözün arxasında şəxsiyyət

Xanəli Kərimlinin 75 illik ömrünə nəzər salanda bir məqam xüsusilə diqqət çəkir: onun haqqında danışanların fikirlərində yaradıcılıqla şəxsiyyətin bir-birindən ayrılmaması. Bu hər yaradıcı insana nəsib olan xüsusiyyət deyil. Alim kimi elmi mühitdə, müəllim kimi tələbələri arasında, şair kimi ədəbi aləmdə, insan kimi dostları və həmkarları arasında qazandığı ehtiram onun uzun illər ərzində formalaşdırdığı mənəvi kapitaldır. Ona görə də Xanəli Kərimlinin 75 illik yubileyini yalnız bir şairin yaşadığı illərin sayı kimi qəbul etmək olmaz. Bu həm də Naxçıvan ədəbi-mədəni mühitində öz dəst-xəti olan bir şəxsiyyətin keçdiyi yolun növbəti mərhələsidir. Yeni kitabın adı isə bu yolun mahiyyətini özü deyir: “Mən haqqın yazan əliyəm…” Bəlkə də, ömrün ən böyük mənası elə budur – insanın öz sözünə, öz yoluna, öz əqidəsinə sadiq qala bilməsi. Xanəli Kərimli də bu yolun içindən keçərək sözünü deyib. Bəzən sakit, bəzən sərt, bəzən nisgilli, bəzən ümidli… Amma həmişə özünəməxsus. Və 75-ci payızında onun əlində yenə qələm, qarşısında yenə ağ vərəq var. Çünki sözə ömür verənlər üçün ömür bitmir – söz davam edir.

Rəmzi TAHİRLİ

## NDU-nun “Enactus” komandası Azərbaycan çempionu olub

Naxçıvan Dövlət Universitetinin “Enactus” komandası 2026-cı il “Enactus Azərbaycan” Milli Yarışının qalibi olub. Bu, NDU komandasının “Enactus” üzrə 6-cı çempionluğudur.

NDU-nun “Enactus” komandası tələbələrin innovativ ideyalarının dəstəklənməsi, layihələrin reallaşdırılması və beynəlxalq təcrübənin təşviqi istiqamətində yaradılan imkanlardan yararlanaraq növbəti böyük uğura imza atıb.

Yarışda uğur qazanan komanda növbəti mərhələdə Azərbaycanı “Enactus World Cup 2026”da təmsil edəcək. Dünya Kuboku bu il Braziliyada keçiriləcək.



# Naxçıvan Sənaye Parkı:
## dünya təcrübəsinin milli iqtisadiyyata qazandıracağı üstünlüklər

**Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 11 avqust tarixdə Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri zamanı bir çox layihənin təməli qoyuldu. Bunlardan biri də Naxçıvan Sənaye Parkı oldu. Ölkəmizdə milli iqtisadiyyat üzrə quruculuq proseslərinin hərəkətverici qüvvəsindən biri də məhz sənayeləşmə siyasətinin həyata keçirilməsidir. Sənayeləşmə siyasətinin milli iqtisadiyyatın aktual məsələsi olmaq etibarilə ölkənin bütün iqtisadi rayonlarını əhatə etməsi, həm davam edən islahatların mahiyyətini ifadə edir, həm ona yeni və modern yanaşmanı gündəmə gətirir, həm də sənayeləşmə proseslərinin şaxələndirilməsinə səmərəli zəmin yaratmış olur. Bu mənada, Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin effektivliyinin yüksəldilməsi ölkənin milli iqtisadiyyatına və onun etibarlı inteqrasiya proseslərinə işıq salır.**

Naxçıvanda Sənaye Parkının yaradılması iqtisadiyyatın əsas və aparıcı sahələrinin inteqrasiya halında, kompleks şəklində və sistematik olaraq inkişafını nəzərdə tutur. Burada kənd təsərrüfatının, emal müəssisələrinin və təbii olaraq sənaye bölməsinin uzunmüddətli perspektivləri təmin olunacaq. Məhz bu əsasda Naxçıvan Sənaye Parkının yaradıldığı ərazinin ixtisaslaşmasına baxdıqda aydın olur ki, 310 hektar sahədə, həm də kifayət qədər kənd təsərrüfatına yararlı torpaqlarda səmərəli potensial yaratmaq mümkün olacaq. Ərazinin aqrar bölmə üzrə ixtisaslaşması yerli xammalın emal edilməsini də zərurətə çevirmiş olacaq ki, bu da həm yeni emal müəssisələrinin yaradılmasını, həm də Sənaye Parkının tam şəkildə formalaşmasını təmin edəcək. Zəncirvari həlqə üzrə bütün mərhələlərdə – xammal potensialının yaradılmasında, emal proseslərində və sənaye məhsulunun yaradılmasında etibarlı məşğulluq göstəriciləri də təşəkkül tapmış olacaq ki, bu da makroiqtisadi inkişafın və sosial dayanıqlılığın güclü dayaqlarını özündə birləşdirmiş olacaq. Diqqət etdikdə aydın olur ki, Sənaye parklarının yaradılması proseslərində bir sıra zəruri məqsədlər vardır:

– ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin yaradılması;

– bu sahədə sahibkarlığın dəstəklənməsi və onun nəticələrinin makroiqtisadi inkişafla düzgün əlaqələndirilməsi;

– qeyri-neft bölməsinin davamlı inkişafının təmin olunması;

– əhalinin istehsal sahəsində məşğulluq səviyyəsinin yüksəldilməsi.

Qeyd olunanlardan aydın olur ki, Sənaye parklarının yaradılması, fəaliyyətinin tənzimlənməsi, makroiqtisadi nəticələri sosial mahiyyətinə görə seçilir və olduqca zəruridir. Naxçıvan Sənaye Parkının da fəaliyyətinin tənzimlənməsi ölkənin, ümumilikdə, sənayeləşmə siyasətinə mühüm təsirinə görə seçiləcəkdir.

Ölkəmizdə Sənaye parklarının yaradılması, onların iqtisadi göstəricilərinə, o cümlədən sahəsinə, sosial dayanıqlılıq üzrə mahiyyətinə diqqət etdikdə bəlli olur ki, bu qurumlar, bir tərəfdən dövlət tənzimləmələrinin mühüm xarakterik xüsusiyyətlərinə, özəl bölmənin inkişaf perspektivlərinə və milli iqtisadiyyat üzrə prioritetlərin əlçatanlığına görə çox mühüm əhəmiyyətə malik olmaqdadır.

Naxçıvan Sənaye Parkı qarşıdakı illər üzrə tam inşa olunduqdan sonra, təxminən, 2500-3000 nəfərin məşğulluğuna təminat yaradacağını demək olar. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Şərur Sənaye Məhəlləsinin də yaradıldığını nəzərə alsaq, onda sənayeləşmə siyasətinin daha səmərəli nəticələr verəcəyindən əminik.

Naxçıvan Sənaye Parkının istifadəyə verilməsindən sonra muxtar respublikada iqtisadi idarəetmənin olduqca mühüm nəticələrini görmüş olacağıq. Hər şeydən əvvəl, sahibkarlıq təşəbbüslərinin daha effektiv nəticələri makroiqtisadi inkişafa öz töhfələrini vermiş olacaq. Sənaye Parkı, eyni zamanda kiçik və orta sahibkarlığın inkişaf perspektivlərinin təşəkkülü, fəaliyyətin səmərəli təşkili və idarə olunması məqsədilə zəruri infrastruktur təsisatlarının yaradılması və müvafiq əlverişli resurs potensialının təşəkkülü baxımından olduqca güclü nəticələrə malik olacaqdır. Eyni zamanda Sənaye Parkının yaradıldığı ərazinin iqtisadi səmərəliliyinə diqqət etdikdə aydın olur ki, burada mezoiqtisadi əhəmiyyətə malik olacaq iqtisadi istehsal fəaliyyətinin təmin olunması, xüsusilə yerli xammala və yerli istehsala əsaslanan potensialın təşəkkülü mümkün olmaqla və olduqca yüksək məşğulluq göstəricilərinə malik olacaqdır.

Beynəlxalq təcrübəyə istinad etdikdə görmək olur ki, dünya ölkələrinin bir çoxunda Sənaye parklarının milli iqtisadiyyatlar üçün olduqca mühüm səmərəsi mövcuddur. Onlar iqtisadiyyatın aparıcı sahələri üzrə dinamik artım göstəricilərinə malik olmaqla təşəkkül tapmaqdadırlar. Bir sözlə, Sənaye parklarının beynəlxalq təcrübəsini öyrənmək üçün xüsusilə Çin, Cənubi Koreya, Sinqapur, Malayziya, Almaniya, Yaponiya, Hindistan və Birləşmiş Ərəb Əmirliklərinin milli iqtisadiyyatlarının uzunmüddətli perspektivlərinə diqqət etmək səmərəli olar.

Buradan aydın olur ki, ölkəmizdə və onun iqtisadi rayonlarında, xüsusilə də Naxçıvan Muxtar Respublikasında Sənaye Parkının yaradılması, müdrik, uzaqgörən və məqsədyönlü qərarların nəticəsi kimi olduqca səmərəlidir. Naxçıvan Sənaye Parkının yaradılması, həm də yeni iqtisadi reallıqlar müstəvisində bəhs olunan ölkələrin təcrübələri baxımından da uyğunluq təşkil edir və buna görə də həm də bütövlükdə, ölkəmizin milli iqtisadiyyatı üçün faydalı olacaqdır.

**Cavadxan QASIMOV**
*Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*



# Prezident İlham Əliyevin Naxçıvan səfəri:
## Azərbaycanın orta güc strategiyası

Naxçıvanın artan geostrateji önəmi digər aktorların diqqətini də bu bölgəyə cəmləşdirir. Naxçıvana göstərilən diqqətin kökündə təkcə sosial qayğı deyil, həm də dərin geosiyasi hesablamalar dayanır. Onilliklər boyu blokada şəraitində yaşamış bu diyar uzun müddət "təcrid olunmuş sərhəd bölgəsi" kimi qəbul edilirdi. Lakin son illərdə həyata keçirilən siyasət bu təsəvvürü kökündən dəyişir: Naxçıvan müdafiə olunan kənar ərazidən fəal iqtisadi və tranzit mərkəzinə çevrilir.

Dövlət başçısının Naxçıvana reallaşdırdığı səfərlər heç vaxt yalnız regional inkişafın gedişinə baxış və ya cari daxili siyasət addımı kimi dəyərləndirilə bilməz. Bu səfərlər, bütövlükdə, Azərbaycanın Cənubi Qafqaz hüdudlarını aşaraq Avrasiya miqyasında formalaşdırdığı "orta güc" diplomatiyasının əyani və praktiki təzahürüdür.

Klassik və müasir politologiyada dövlətin "orta güc" statusu yalnız onun ərazi ölçüsü, demoqrafik göstəriciləri və ya hərbi potensialı ilə müəyyən olunmur. Bu status, ilk növbədə, beynəlxalq gündəliyə təsir göstərmək, regional böhranların nizamlanmasında təşəbbüskar mövqe tutmaq, qlobal tranzit-kommunikasiya şəbəkələrində etibarlı körpü rolunu oynamaq və çoxtərəfli diplomatiyada müstəqil oyunçu kimi qəbul edilmək qabiliyyətinə söykənir.

İkinci Qarabağ müharibəsi və ardınca dövlət suverenliyinin tam bərpa edilməsi ilə Azərbaycan bölgədəki status-kvonu və güc balansını köklü şəkildə dəyişdi. Azərbaycan artıq yalnız öz milli təhlükəsizliyini təmin edən regional dövlət deyil, həm də qlobal logistika və enerji xəritələrinə təsir göstərən, beynəlxalq münasibətlər sistemində söz sahibi olan fəal aktor kimi çıxış edir. Bu genişmiqyaslı strategiyanın ən həlledici, eyni zamanda ən həssas coğrafi bəndlərindən biri isə, şübhəsiz ki, Naxçıvandır.

Uzun müddət blokada vəziyyətində qalmasına baxmayaraq, milli dövlətçilik iradəsi sayəsində möhkəm qalaya çevrilmiş Naxçıvana bugünkü strateji baxış tamamilə başqa müstəviyə keçib. Naxçıvan artıq yalnız müdafiə olunan, təhlükəsizliyi qorunan periferiya deyil, o, bütövlükdə, Avrasiya məkanında iqtisadi inteqrasiyaya və beynəlxalq nəqliyyat əlaqələrinə təsir göstərə biləcək mühüm mərkəzdir.

Cənab Prezidentin Naxçıvan səfərində vurğulanan prioritetlər və start verilən infrastruktur təşəbbüsləri birbaşa Zəngəzur dəhlizi perspektivi ilə qovuşur. Bu marşrut yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən nəqliyyat xətti deyil, eyni zamanda Şərq-Qərb bağlantısının mühüm elementlərindən biri kimi nəzərdən keçirilir. Naxçıvan bu şəbəkədə həm Türk dünyasını quru yollarla bir-birinə bağlayan tarixi körpü, həm də Şərqlə Qərb arasında formalaşan ticarət və nəqliyyat axınlarının mühüm qovşağına çevrilə bilər.

Eyni zamanda bölgədə yerləşən Əlahiddə Ümumqoşun Ordunun müasir hərbi standartlara uyğun təchizatı və döyüş qabiliyyətinin yüksəldilməsi Azərbaycanın nəqliyyat və kommunikasiya layihələrinin, eləcə də sərhəd təhlükəsizliyinin qorunmasına xüsusi önəm verdiyini göstərir. Çünki qlobal arenada təhlükəsizlik təminatçısı rolunu yerinə yetirmək imkanına malik olmayan heç bir dövlət "orta güc" statusunu davamlı şəkildə möhkəmləndirə bilməz.

Bununla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində təsir gücü qazanmağın əsas şərtlərindən biri qlobal gündəliyin çağırışlarına adekvat cavab vermək, xüsusilə də "yaşıl enerji" keçidinə töhfə verməkdir. Prezidentin Naxçıvanın "yaşıl enerji zonası" konsepsiyasını irəli sürməsi Azərbaycanın iqtisadi diplomatiyasına yeni keyfiyyət qazandırır. Muxtar respublikanın zəngin günəş, külək və su enerjisi potensialının reallaşdırılması yalnız yerli tələbatın təmiz enerji mənbələri hesabına ödənilməsi anlamına gəlmir. Bu layihələr Naxçıvandan Türkiyəyə və oradan Avropa bazarlarına bərpa olunan elektrik enerjisinin ixracı perspektivini də gündəmə gətirir. Nəticədə, Azərbaycan ənənəvi karbohidrogen resurslarının ixracatçısı olmaqla yanaşı, Avropanın gələcək enerji təhlükəsizliyində bərpa olunan enerji sahəsində də etibarlı tərəfdaş mövqeyini gücləndirə bilər. Bu isə ölkənin yumşaq gücünü və beynəlxalq nüfuzunu artıran mühüm strateji istiqamətdir.

Naxçıvan, eyni zamanda Azərbaycanın qonşuluq siyasətinin, regional əməkdaşlıq imkanlarının və çoxtərəfli diplomatik manevr qabiliyyətinin mühüm strateji platformalarından biridir. Türkiyə və İranla birbaşa sərhədə malik olan bu region Bakının balanslaşdırılmış, lakin milli maraqlara söykənən prinsipial xarici siyasətini nümayiş etdirir. Digər tərəfdən, Azərbaycan regionun digər dövlətləri ilə konstruktiv dialoq və iqtisadi əməkdaşlıq formatlarını da Naxçıvan ətrafındakı nəqliyyat və enerji layihələri, o cümlədən "Araz dəhlizi" kimi təşəbbüslər vasitəsilə inkişaf etdirir. Bu yanaşma heç bir xarici güc qütbündən asılı olmadan müxtəlif aktorlarla bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan münasibətlər qurmağı bacaran yetkin dövlət modelini – klassik "orta güc" xəttini ifadə edir.

Bütün bu amillər göstərir ki, dövlət başçısının Naxçıvana hər bir gəlişi, qoyulan hər bir təməl və səsləndirilən hər bir strateji bəyanat vahid böyük tablonun ayrılmaz hissəsidir. Naxçıvanda qurulan müasir logistika qovşaqları, inkişaf etdirilən dəmir yolu və nəqliyyat şəbəkələri, "yaşıl enerji" layihələri və gücləndirilən təhlükəsizlik imkanları Azərbaycanın beynəlxalq arenada artıq passiv müşahidəçi və ya qaydaları qəbul edən deyil, proseslərə təsir göstərən və yeni reallıqlar formalaşdıran dövlət olduğunu nümayiş etdirir.

Azərbaycanın yeni geostrateji strategiyasında Naxçıvan artıq periferiya və ya blokada məkanı deyil, o, Şərqlə Qərb, Türk dünyası ilə Avrasiya nəqliyyat məkanı arasında mühüm bağlantı nöqtəsinə çevrilir. Naxçıvanın inkişafı ilə bağlı həyata keçirilən layihələr Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsinə, iqtisadi və nəqliyyat əlaqələrinin genişlənməsinə, enerji potensialının reallaşdırılmasına və ölkənin beynəlxalq təsir imkanlarının artırılmasına xidmət edir.

**Nazlı YAQUBOVA**
*Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə dissertant*

# Qidalanma və psixologiya: sağlamlığın görünməyən bağı

Qidalanma insan həyatının ən fundamental ehtiyaclarından biri olmaqla yanaşı, onun fiziki və psixoloji vəziyyətinə təsir edən mühüm amillərdəndir. Qida yalnız aclıq hissini aradan qaldıran vasitə deyil, eyni zamanda orqanizmdə gedən mürəkkəb biokimyəvi proseslərin davamlılığını təmin edən enerji və “tikinti materialı” mənbəyidir. Müasir elmi yanaşmalar göstərir ki, qidalanmanın təsiri yalnız fiziki sağlamlıqla məhdudlaşmır. Gündəlik qida rasionunun tərkibi beynin fəaliyyəti, diqqət, yaddaş, əhvali-ruhiyyə, stressə davamlılıq və emosional sabitliklə də əlaqəlidir. Bununla yanaşı, insanın emosional vəziyyəti də onun qida seçimlərinə təsir göstərir. Beləliklə, qidalanma ilə psixologiya arasında qarşılıqlı və dinamik əlaqə mövcuddur.

Stress vəziyyətində insanların qida davranışı fərqli ola bilər. Bəzi insanlar yüksək kalorili və şəkərli məhsullara daha çox meyil edir, digərlərində isə iştaha azalır və ya tamamilə itir. Bu fərqlər insanın stressə verdiyi fərdi psixoloji və fizioloji reaksiyalarla bağlıdır. Psixologiyada “comfort food” – “rahatladıcı qida” anlayışı insanın neqativ emosional vəziyyət, stress və ya tənhalıq hissi zamanı özündə rahatlıq yaradan, uşaqlıq xatirələri, təhlükəsizlik və sevgi hissi ilə əlaqələndirdiyi qidalara yönəlməsini ifadə edir.

Kədər, gərginlik və ya sıxıntı zamanı müəyyən qidaların seçilməsi təsadüfi deyil. Xüsusilə şəkər və yağ baxımından zəngin qidalar beyində mükafat və həzz mexanizmlərini aktivləşdirərək qısamüddətli rahatlıq hissi yarada bilər. Lakin bu rahatlıq davamlı olmur. Sonrakı mərhələdə peşmanlıq və günahkarlıq hissi yarana, nəticədə, insan emosional yemə dövrünə düşə bilər. Karbohidratlarla zəngin qidaların qəbulu da əhvali-ruhiyyənin tənzimlənməsində iştirak edən neyrobioloji mexanizmlərə təsir göstərə bilər. Lakin emosional rahatlığı yalnız müəyyən qidalardan gözləmək əvəzinə balanslaşdırılmış qidalanma vərdişlərinin formalaşdırılması daha sağlam yanaşmadır.

İnsan psixologiyasında qidalanmanın təsir göstərə biləcəyi mexanizmlərdən biri serotonin mübadiləsi ilə bağlıdır. Xalq arasında “xoşbəxtlik hormonu” kimi tanınsa da, serotonin, əslində, əhvali-ruhiyyənin, yuxunun, iştahanın və bir sıra digər fizioloji proseslərin tənzimlənməsində iştirak edən neyrotransmitterdir. Serotoninin yaranmasında triptofan adlı amin turşusu mühüm rol oynayır. Triptofanla zəngin qidalara süd məhsulları, yumurta, hinduşka əti, bəzi balıq növləri, qoz-fındıq və paxlalılar daxildir. Bununla belə ayrı-ayrı qidaların qəbulunun avtomatik olaraq beyində serotoninin səviyyəsini yüksəltdiyini düşünmək düzgün olmaz. Serotonin mübadiləsi daha mürəkkəb prosesdir və burada ümumi qidalanma, maddələr mübadiləsi və digər fizioloji amillər birlikdə rol oynayır. Sağlam karbohidrat mənbələri – tam taxıllı məhsullar, bulqur, meyvə və tərəvəzlər də balanslaşdırılmış rasionun mühüm hissəsidir.



Müasir tədqiqatlarda bağırsaq sağlamlığı ilə insanın psixoloji vəziyyəti arasındakı əlaqəyə xüsusi diqqət yetirilir. Bu qarşılıqlı əlaqə elmi ədəbiyyatda “bağırsaq-beyin oxu” adlandırılır. Bağırsaq mikrobiomu, vagus siniri, immun sistem və hormonal mexanizmlər vasitəsilə həzm sistemi ilə mərkəzi sinir sistemi arasında davamlı əlaqə mövcuddur. Qidalanma isə bu sistemin mühüm təsir amillərindən biridir.

Serotoninin böyük hissəsinin bağırsaqlarda sintez edilməsi tez-tez vurğulansa da, burada mühüm bir məqam nəzərə alınmalıdır: bağırsaqlarda istehsal olunan serotonin birbaşa beyindəki serotoninlə eyni funksiyanı daşımır. Buna görə də bağırsaq sağlamlığı ilə psixoloji vəziyyət arasındakı əlaqəni yalnız serotoninlə izah etmək elmi baxımdan kifayət deyil. Liflə zəngin meyvə-tərəvəz, tam taxıllar, qoz-fındıq, fermentləşdirilmiş süd məhsulları və omeqa-3 yağ turşuları ilə zəngin qidaların balanslı şəkildə qəbulu bağırsaq mikrobiotasının və ümumi sağlamlığın dəstəklənməsinə kömək edə bilər. Əksinə, yüksək dərəcədə işlənmiş və şəkərlə zəngin qidaların həddindən artıq qəbulu sağlam qidalanma modelinin pozulmasına və müxtəlif mənfi metabolik dəyişikliklərə səbəb ola bilər.

Sağlam qidalanmanın insan psixologiyasına təsirində mühüm rol oynayan komponentlərdən biri də omeqa-3 yağ turşularıdır. Bu maddələr beyin fəaliyyətinin və sinir hüceyrələrinin normal funksiyalarının qorunmasında mühüm əhəmiyyət daşıyır. Somon, skumbriya, sardina kimi yağlı balıqlar omeqa-3 baxımından zəngin qida mənbələridir. Qoz, kətan toxumu və bəzi paxlalılar da faydalı yağ turşularının mənbəyi hesab olunur. Tədqiqatlarda omeqa-3 yağ turşularının depressiya və bəzi digər psixoloji problemlərdə əlavə dəstək roluna malik ola biləcəyi araşdırılır. Lakin onları psixoloji pozuntuların müstəqil müalicəsi kimi qiymətləndirmək düzgün deyil. Uşaqlarda isə omeqa-3 yağ turşuları beyin inkişafı və idrak prosesləri baxımından xüsusi əhəmiyyət daşıyır. Balanslaşdırılmış qidalanma uşağın sağlam inkişafını və öyrənmə prosesini dəstəkləyən mühüm amillərdəndir.

Balanssız qidalanma, fiziki hərəkətsizlik və xroniki stress orqanizmdə müxtəlif metabolik və iltihabi proseslərlə əlaqələndirilir. Bu istiqamətdə aparılan araşdırmalar xroniki iltihab ilə depressiya və digər psixoloji pozuntular arasında mümkün əlaqələrin olduğunu göstərir. Məhz bu baxımdan “iltihab nəzəriyyəsi” müasir psixiatriya və neyrobiologiyada diqqətçəkən elmi yanaşmalardan biridir. Bu yanaşmaya görə, orqanizmdə uzunmüddətli iltihabi proseslər beyin fəaliyyətinə və neyrotransmitter sistemlərinə təsir göstərə bilər. Lakin depressiyanın yaranmasını yalnız iltihabla izah etmək mümkün deyil. Psixi sağlamlıq problemləri genetik, bioloji, psixoloji və sosial amillərin mürəkkəb qarşılıqlı təsirinin nəticəsi ola bilər.

Qidalanma ilə emosional vəziyyət arasındakı əlaqənin ən aydın nümunələrindən biri emosional yemək davranışıdır. İnsan bəzən fizioloji aclıq olmadığı halda stress, kədər, narahatlıq və ya digər emosional səbəblərdən qidaya müraciət edə bilər. Belə hallarda yüksək kalorili, şəkərli və yağlı məhsullara üstünlük verilməsi daha çox müşahidə olunur. Bu qidalar qısamüddətli həzz və rahatlıq hissi yarada bilər. Lakin emosional problemlərin həlli üçün qidadan davamlı istifadə etmək uzunmüddətli perspektivdə sağlam qidalanma vərdişlərinin pozulmasına gətirib çıxara bilər. Bu səbəbdən insanın fizioloji aclıqla emosional yemək istəyini ayırd etməyi öyrənməsi vacibdir. Bəzən “Mən həqiqətən, acam, yoxsa, sadəcə, yorğun, gərgin və ya kədərliyəm?” sualını özünə vermək belə qida davranışını daha şüurlu idarə etməyə kömək edə bilər.

Sağlam qidalanma psixologiyası yalnız qəbul edilən qidaların tərkibinə deyil, insanın qida ilə qurduğu münasibətə də diqqət yetirir. Bu baxımdan, şüurlu qidalanma xüsusi əhəmiyyət daşıyır. Şüurlu qidalanma zamanı insan yediyi qidaya diqqət yetirir, onun dadını, qoxusunu və teksturasını dərk edir, yemə prosesini tələsmədən həyata keçirir. Bu yanaşma qida qəbuluna nəzarətin artmasına və həddindən artıq yeməyin qarşısının alınmasına kömək edə bilər. Sağlam qidalanma həm də müəyyən rejimin qorunmasını tələb edir. Uzun müddət ac qalmaq, qida qəbulunu tez-tez təxirə salmaq və gec saatlarda həddindən artıq yemək bəzi insanlarda enerji səviyyəsinə, yuxuya və ümumi rifaha mənfi təsir göstərə bilər. Nizamlı qidalanma isə gündəlik həyat ritminin daha balanslı təşkilinə kömək edir. Burada əsas məqsəd sərt qida qadağaları yaratmaq deyil, orqanizmin ehtiyaclarını nəzərə alan davamlı və sağlam qidalanma vərdişi formalaşdırmaqdır.

Qidalanma insanın psixoloji vəziyyətini müəyyən edən yeganə amil deyil. Psixi sağlamlıq problemlərinin yaranmasında genetika, bioloji xüsusiyyətlər, sosial mühit, həyat tərzi və fərdi psixoloji amillər də mühüm rol oynayır. Buna görə də qidalanma vərdişlərini psixoloji problemlərin yeganə səbəbi və ya əsas müalicə vasitəsi kimi təqdim etmək düzgün yanaşma deyil. Bununla belə beynin və sinir sisteminin normal fəaliyyəti üçün orqanizmin lazımi qida maddələri ilə təmin olunması vacibdir. Balanslaşdırılmış qidalanma, kifayət qədər fiziki aktivlik, keyfiyyətli yuxu və stressin idarə olunması birlikdə sağlam həyat tərzinin əsasını təşkil edir.

Nəticə etibarilə, qida yalnız süfrədəki məhsul deyil. O, orqanizmin enerji mənbəyi olmaqla yanaşı, beyin fəaliyyəti, emosional vəziyyət və həyat keyfiyyəti ilə də əlaqəli mürəkkəb bir prosesin parçasıdır. Sağlam qidalanmaq isə yalnız “Nə yeyirik?” sualına cavab vermək deyil, “Nə vaxt yeyirik?”, “Nə qədər yeyirik?” və “Niyə yeyirik?” suallarını da özümüzə verməkdir. Sağlam süfrə sağlam bədən üçün olduğu qədər, sağlam həyat və psixoloji rifah üçün də mühüm dayaqlardan biridir.

**Həsən MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universitetinin dosenti, “Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu” publik hüquqi şəxsin İdarə Heyətinin sədri*

**Günel İBRAHİMOVA**
*“Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu” publik hüquqi şəxsin Təlim sektorunun böyük mütəxəssisi*

## Naxçıvanda 45,9 min ton taxıl istehsal olunub

Naxçıvan Muxtar Respublikasında taxıl biçini başa çatıb, ötən illə müqayisədə taxıl istehsalı 22,0 faiz artıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən “Şərq qapısı”na verilən məlumata görə, Naxçıvan Muxtar Respublikasında 13 778,1 hektar taxıl sahəsində biçin aparılıb. Biçilmiş sahələrin 4 108,2 hektarını buğda, 9 669,9 hektarını isə arpa sahələri təşkil edib.

Muxtar respublika üzrə, ümumilikdə, 45 914,2 ton taxıl məhsulu istehsal olunub. Məhsulun 15 320,4 tonu buğdanın, 30 593,8 tonu isə arpanın payına düşüb. Taxıl üzrə orta məhsuldarlıq hər hektardan 33,3 sentner, o cümlədən buğda üzrə 37,3 sentner, arpa üzrə 31,6 sentner olub.

Rayonlar üzrə ən yüksək orta məhsuldarlıq Şərur rayonunda qeydə alınıb. Burada hər hektardan orta hesabla 41,9 sentner olmaqla, 11 578,0 ton taxıl toplanıb. Sədərək rayonunda hər hektardan 39,1 sentner olmaqla, 6 288,0 ton, Babək rayonunda 34,4 sentner olmaqla, 14 747,8 ton, Ordubad rayonunda 29,0 sentner olmaqla, 1 686,4 ton, Culfa rayonunda 25,5 sentner olmaqla, 3 266,5 ton, Şahbuz rayonunda 25,4 sentner olmaqla, 1 326,0 ton, Kəngərli rayonunda isə hər hektardan 24,3 sentner olmaqla, 5 504,1 ton taxıl məhsulu toplanıb. Naxçıvan şəhərində hər hektardan orta hesabla 32,0 sentner olmaqla, 1 517,4 ton taxıl məhsulu əldə edilib.



Müqayisə üçün qeyd edək ki, 2025-ci ildə muxtar respublikada 15 029,4 hektar sahədən 37 648,8 ton taxıl toplanıb, orta məhsuldarlıq hər hektardan 25,1 sentner təşkil edib.

# Qəbul olundum, bəs indi nə etməliyəm?
## Tələbəlik illərinin görünməyən dərsliyi

Həmin siyahı yadınızdadırmı? Bəziləri üçün göz yaşları, bəziləri üçün sakit bir "nəhayət" idi. Aylarla, bəlkə də, illərlə davam edən hazırlıq, sınaq imtahanları, gecə saatlarına qədər açıq qalan dərsliklər, valideynlərin "Get yat, sabah yenə oxuyacaqsan" xəbərdarlıqları bir anda arxada qaldı. İndi adın bir ali təhsil müəssisəsinin, bir ixtisasın qarşısında yazılıb. Təbrik olunursan. Amma bu təbrikdən sonra çox az adam səni əsl sualla üz-üzə qoyur: bəs indi nə olacaq?

Bu sual ilk baxışda sadə görünür. Halbuki abituriyentlik illərində diqqətin böyük hissəsi tək bir hədəfə – qəbul olmağa yönəlmişdi. İndi həmin hədəf arxada qaldı, amma yenisi isə hələ formalaşmayıb. Məhz nəticələrin elan olunduğu gündən dərslərin başladığı günə qədər olan müddətdə bunu dərk etmək vacibdir: universitetə qəbul proses deyil, prosesin yalnız qapısıdır. Əsl iş indi başlayır.

### "Qəbul oldum" ilə "tələbə oldum" arasındakı fərq

Abituriyentlik dövründə həyat müəyyən bir sxem üzrə qurulur: müəyyən fənlərdən bal toplamaq, keçid həddini aşmaq və universitetə qəbul olmaq. Aydın hədəf, aydın meyar, aydın nəticə.




Tələbəlik isə tamam başqa bir mərhələdir. Burada uğur yalnız rəqəmlərlə ölçülmür. Bir tələbə əla diplomla məzun ola bilər, amma iş müsahibəsində sualların qarşısında çətinlik çəkə bilər. Başqa bir tələbə isə orta göstəricilərlə oxuya-oxuya özünü elə formalaşdıra bilər ki, məzun olan kimi qarşısına bir neçə iş təklifi çıxsın. Fərq ondadır ki, biri universiteti yalnız "dərs oxumaq yeri" kimi görür, digəri isə onu özünü sınamaq, formalaşdırmaq və kəşf etmək məkanı kimi qəbul edir. Elə buna görə də universitetə qəbul olmaq məqsədin sonu deyil, yeni mərhələnin başlanğıcıdır. Bu mərhələnin necə keçəcəyi isə böyük ölçüdə elə indi verəcəyiniz qərarlardan asılıdır.

### Auditoriyadan kənarda qalan universitet...

Universitet təhsili, ilk növbədə, nəzəri biliyə əsaslanır və belə də olmalıdır. Mühazirələr, seminarlar, laboratoriya məşğələləri, kollokviumlar və imtahanlar ali təhsilin əsasını təşkil edir. İxtisasın nəzəri bazasını bilmədən yaxşı mütəxəssis olmaq mümkün deyil. Amma əmək bazarı artıq yalnız diplom və nəzəri biliklə kifayətlənmir. İşəgötürənlər "nə bilirsən?" sualı ilə yanaşı, "nə edə bilərsən?", "problemlə üzləşəndə necə davranırsan?", "komandada necə işləyirsən?" suallarına da cavab axtarırlar. Bu cavabların hamısını auditoriyada almaq mümkün deyil.

Eyni fakültədə və eyni ixtisasda oxuyan iki tələbə təsəvvür edin. Biri dərslərini vaxtında bitirir, kitabxanaya gedir, imtahanlara hazırlaşır və evə qayıdır. Digəri isə bunlarla yanaşı, tələbə təşkilatının bir layihəsində iştirak edir, yay tətilində təcrübə keçir, universitetdənkənar təlimə qatılır, kiçik layihələr həyata keçirir. Dörd il sonra kağız üzərində ikisinin də diplomu eyni ola bilər. Amma reallıqda təcrübələri tamamilə fərqli olacaq.

Burada söhbət hər tələbənin mütləq çoxsaylı fəaliyyətlərə qoşulmasından getmir. Söhbət universitet illərini, yalnız dərs cədvəli ilə məhdudlaşdırmamaqdan gedir.

### Bu fəaliyyətlər konkret olaraq nə verir?

Könüllülük, ilk baxışda, sadəcə, "kömək etmək" kimi görünür. Əslində isə məsuliyyət hissini, komanda daxilində işləmək və müxtəlif insanlarla ünsiyyət qurmaq bacarığını formalaşdırır. Bəzən ilk təşkilatçılıq təcrübəsi də məhz burada qazanılır.

Təcrübə proqramları auditoriyada öyrənilən nəzəriyyənin real iş şəraitində necə tətbiq olunduğunu göstərir. Kitabda hər şey aydın və qaydalı görünür, real işdə isə vaxt təzyiqi, qeyri-müəyyənlik və gözlənilməz problemlər var.

Layihələr, ideyanı kağızdan reallığa keçirmək bacarığını formalaşdırır. Kiçik bir layihənin belə planlaşdırılması, komanda ilə həyata keçirilməsi və nəticənin qiymətləndirilməsi gələcək iş həyatında çox dəyərli təcrübəyə çevrilir.

Tələbə təşkilatlarında iştirak liderlik, komanda idarə etməsi məsuliyyət və qərarvermə bacarıqlarını inkişaf etdirir. Konfranslarda çıxış etmək isə fikri strukturlaşdırmağı, arqumentləşdirməyi və auditoriya qarşısında təqdim etməyi öyrədir. Bunlara effektiv ünsiyyət, problem həlletmə, tənqidi və yaradıcı düşüncə, vaxtın idarə olunması, emosional, intellekt, yazılı kommunikasiya, rəqəmsal savadlılıq, xarici dil, layihə, idarəetmə və təşəbbüskarlığı da əlavə etmək olar.

Əsas məsləhət isə budur: bu bacarıqların böyük hissəsi dərslikdə yazılmır. Onlar fəaliyyət zamanı, komanda daxilində, uğursuz təqdimatdan və ya çətin vəziyyətdən sonra formalaşır.

### CV-ni doldurmaq üçün yox, özünü tapmaq üçün

Son illərdə tələbələr arasında tendensiya müşahidə olunur: hər tədbirə, hər layihəyə və təlimə "CV-də yaxşı görünsün" düşüncəsi ilə qoşulmaq.

Bu yanaşma məsələnin mahiyyətini dəyişir. Könüllülüyün əsas məqsədi sertifikat toplamaq, təcrübə proqramının isə məqsədi "təcrübə keçdim" sənədi əldə etmək, təlimə getməyin məqsədi iştirak vərəqəsi olmaq deyil. Əsl məqsəd – öyrənmək, sınamaq, bəzən səhv etmək, təcrübə toplamaq və nəticədə, özünü daha yaxşı tanımaqdır. Əgər sən nəyəsə, həqiqətən, maraqdan qoşulmusansa, sertifikat və ya tövsiyə məktubu bunun təbii nəticəsi ola bilər. Amma tərsinə yalnız kağız üçün çalışsan, çox vaxt nə real təcrübə qazanırsan, nə də həmin kağız gələcəkdə sənə ciddi üstünlük verər. Çünki müsahibədə əsas sual belə olacaq: "Bu təcrübədə konkret nə etdim?"

### Bir yol xəritəsi

Tələbəlik illərinin, hər kursun öz ritmi və vəzifəsi var. Bunu sərt qayda kimi yox, istiqamət kimi düşünmək lazımdır. Birinci kurs uyğunlaşmaq və sınaq dövrüdür. Yeni mühitə, insanlara və tələblərə öyrəşmək, universitetin təklif etdiyi imkanları tanımaq və müxtəlif fəaliyyətləri sınamaq vacibdir. İkinci kurs maraq dairəsini dəqiqləşdirmək ilidir. Birinci kursda sınadığın fəaliyyətlərdən hansının sənə, həqiqətən, maraqlı olduğunu müəyyənləşdirmək, könüllülük və ilk təcrübə imkanlarına qoşulmaq daha aktiv olar. Üçüncü kurs dərinləşmə dövrüdür. Artıq ixtisasın əsasları formalaşıb. Bu mərhələdə real təcrübə toplamaq, konkret layihələrdə iştirak etmək və sahədə tanınan insanlarla əlaqələr qurmaq gələcək üçün mühüm üstünlük yaradır. Dördüncü kurs hazırlıq dövrüdür. CV-ni və portfolionu formalaşdırmaq, müsahibəyə hazırlaşmaq iş bazarını və ya magistratura imkanlarını araşdırmaq lazımdır. Əvvəlki üç ilin təcrübəsi artıq konkret nəticəyə çevrilməlidir.

### Təhsil haqqı mane olmamalıdır

Universitetə qəbul sevincli xəbərdir. Amma bəziləri üçün sevincin ardınca ciddi bir sual gəlir: "Təhsil haqqını necə ödəyəcəyik?" Hər ailənin maddi imkanı eyni deyil. Kimisi üçün təhsil haqqı adi xərcdirsə, başqası üçün ailə büdcəsinin ciddi yenidən planlaşdırılmasını tələb edən yükdür.

Lakin maddi çətinlik ali təhsil arzusunun yarımçıq qalması üçün məcburi səbəb olmamalıdır. Azərbaycanda bu istiqamətdə dövlət tərəfindən yaradılmış mexanizmlərdən biri Təhsil Tələbə Krediti Fondudur. Fondun məqsədi təhsilə əlçatanlığın genişləndirilməsi və maddi vəziyyətdən asılı olmayaraq, tələbələr üçün bərabər imkanların yaradılmasıdır.

Fondun sosial və standart təhsil tələbə krediti olmaqla iki əsas istiqaməti var. Burada əsas məsələ tələbənin və ailənin məlumatlı olmasıdır. Müraciət qaydalarını, tələbləri və son tarixləri vaxtında öyrənmək gələcəklə bağlı məsuliyyətli qərarın bir hissəsidir.

### Valideynlərə sözümüz budur

Tələbənin yolu yalnız auditoriyada deyil, çox vaxt ailə mühitində formalaşır.

Uzun illər ərzində valideyn-övlad ünsiyyətinin mərkəzində bir sual dayanıb: "İmtahandan neçə aldın?" Bu sual, əlbəttə, vacibdir. Amma tələbəlik illərində valideynin diqqət yetirməli olduğu sahə daha genişdir. Övladınız hansı layihədə iştirak edir? Hansı sahəyə maraq göstərir? Hansı çətinliklərlə üzləşir? Gələcəklə bağlı hansı planları var? Bu sualları vermək nəzarət etmək deyil, dəstək olmaq deməkdir. Nəzarət edən valideyn övladının hər addımını izləyir, təzyiq göstərir, "Sən bunu et, bunu etmə", – deyir. Dəstək olan valideyn isə istiqamət göstərir, sual verir, dinləyir və qərar üçün lazım olan azadlığı saxlayır. Çünki tələbəlik həm də gəncin müstəqilliyini formalaşdırdığı dövrdür. Valideynin rolu bu mərhələdə "hər addımı idarə edən" formatdan "yolboyu yanında olan" formata keçməlidir.

### Son söz: Siz artıq tələbəsiniz

Siz artıq tələbəsiniz. Amma tələbə olmaq yalnız universitetin qəbul siyahısında adınızın olması demək deyil. Tələbə olmaq öyrənməkdir, axtarmaqdır, sınamaqdır, bəzən yıxılıb yenidən qalxmaqdır. İnsanlarla tanış olmaq, sual vermək, "bilmirəm" deməkdən çəkinməmək, təşəbbüs göstərmək və ilk addımı özün atmaqdır.

Qarşınızda dörd il var. Bəzən sizə uzun görünəcək, bəzən isə geriyə baxanda nə qədər tez keçdiyinə təəccüblənəcəksiniz. Bu illər sizə hazır forma verməyəcək. Siz özünüzü bu illər ərzində formalaşdıracaqsınız. Universitetə qəbul çətin bir yolun sonu idi. İndi isə başqa, daha uzun və daha maraqlı bir yol başlayır. Qarşınıza çıxan "Qəbuldan sonra nə?" sualının cavabını da məhz bu dörd il ərzində addım-addım özünüz yazacaqsınız.

Uğurlar sizə əziz tələbələr.

**Hüseyn İMANOV**
*Naxçıvan Dövlət Universitetinin Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin müdiri*

# Oxucu məktubları

## Naxçıvanın tarixi abidələri qorunur və yaşadılır

Hörmətli redaksiya! Zəngin tarixə, o cümlədən memarlıq mədəniyyətinə malik qədim Naxçıvanın tarixi-mədəni abidələrinin qorunması daim dövlətimizin diqqətində olub. Tarixin dərin qatlarından gələn qədim irsimizin gələcək nəsillərə çatdırılması istiqamətində görülən işlər bu gün də uğurla davam etdirilir. Atabəylər dövlətinin paytaxtı olan qədim Naxçıvanda müxtəlif dövrlərə aid dünya əhəmiyyətli abidələr var. Bunlardan biri də Əcəmi yaradıcılığının ən möhtəşəm nümunələrindən olan Möminə xatun məqbərəsidir. Dövlət başçısının bu tarixi abidənin bərpası ilə bağlı imzaladığı Sərəncam və Naxçıvana səfəri zamanı bərpa işləri ilə yaxından tanış olması hər bir naxçıvanlını sevindirir. Azərbaycan memarlıq məktəbinin şah əsəri, dahi memar Əcəmi Naxçıvaninin ölməz irsi olan bu möhtəşəm abidənin dövlət səviyyəsində xüsusi diqqətə alınması, onun elmi əsaslarla bərpası üçün vəsait ayrılması və dövlət başçısının görülən işlərlə şəxsən tanış olması milli-mədəni irsimizin qorunmasına verilən dəyərin ən parlaq nümunəsidir.

Bu gün Möminə xatun məqbərəsinin qarşısında dayanan hər bir insan həm tariximizin möhtəşəmliyini, həm də onu gələcək nəsillərə çatdırmaq məsuliyyətini daha dərindən hiss edir. Bu abidə bizə keçmişimizdən, zəngin mədəniyyətimizdən və görkəmli şəxsiyyətlərimizdən xəbər verir. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edirik. Tariximizə və milli dəyərlərimizə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığımızı bildiririk.

**Əsgər QURBANOV**
*Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin tarix müəllimi*




## Qədim Naxçıvan elinin çırağı indi hər tərəfi nura qərq edir

Qədim elimin zəhmətkeş insanlarına salam olsun! Ötən əsrin 90-cı illərinin əvvəllərində bir tərəfdən blokada, bir tərəfdən də mənfur qonşumuz ermənilərin ardı-arası kəsilməyən hücumları Naxçıvanda çox təhlükəli, daha dəqiq desək, qorxunc bir vəziyyət yaradırdı. Düşmən öncə Mehri ərazisindən keçən elektrik xətlərini sıradan çıxarıb Naxçıvanı qaranlığa qərq etmiş, ardınca isə hücumlarını davam etdirmişdi. Biz naxçıvanlılar həmin illərdə qəlbimizdəki Vətən sevgisinin istisində isinib, işığında döyüşdük. Ulu Öndərimizin ətrafında birləşib, yumruq olduq. Onun Naxçıvana qayıdışı ilə qədim diyarımız dirçəldi, müdafiə olundu və qalib gəldi. Sözümün canı budur ki, illər əvvəl çəkilən əziyyətlərin keçmişin xatirəsinə çevrilməsinin əsas səbəblərindən biri də mavi yanacaq, elektrik enerjisi və içməli su ilə bağlı problemlərin öz həllini tapmasıdır. İndi hər kəs həmin qayğıların əksəriyyətindən uzaqdır, öz gündəlik həyatına və əməyinə daha çox vaxt ayırır. Ulu Öndərimizin Naxçıvana gəlişindən sonrakı illərdə problemlərin mərhələli şəkildə həllinə başlanıldı. Dövlətimizin ucqar dağ kəndlərinə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsi olaraq yaşayış məntəqələri fasiləsiz elektrik enerjisi və mavi yanacaqla təmin edildi. Kəndlərdə yenidən canlanma yarandı əkin sahələrində ən müasir texnikaların səsləri eşidildi. İnsanlar indi vaxtını ərzaq və yanacaq növbələrinə deyil, Naxçıvanın inkişafına, abadlaşıb və gözəlləşməsinə sərf edir. Hər kəs öz məhsuldar fəaliyyəti ilə ümumi işə töhfəsini verməyə çalışır. Bu gün Naxçıvan "yaşıl enerji" bölgəsinə çevrilib. Dövlətimiz, qurub-yaradan əllər var olsun!

**Nadir MƏMMƏDOV**
*Sədərək rayonu, Sədərək kənd sakini*

# Salxım-salxım yetişən zəhmət



Üzüm bağında ilk diqqəti çəkən salxımlar olur. Bir-birinə sıx düzülmüş gilələr sanki təbiətin öz əli ilə yaratdığı mirvarilərdir. Qızılı-sarı, yaşıl-sarı rənglərə çalan salxımlar budaqlardan asılaraq bağa xüsusi gözəllik verir. Eləsi var incə və zərif görünüşü ilə rəssamın fırçasına ilham ola bilər, eləsi də var ki, dolu, şirəli, yetişmiş giləleri ilə az qala "Məni dər, dadıma bax", – deyir. Bağdakı bu rəng çalarları bir araya gələndə isə sanki canlı bir tablo yaranır.

Üzüm təkcə görünüşü ilə deyil, süfrəmizdəki yeri ilə də seçilir. Bu meyvədən mürəbbə, kişmiş, şirə və digər məhsullar hazırlanır. Günəş altında qurudularaq hazırlanan kişmiş üzümün təbii şirinliyini özündə saxlayan nemətlərdəndir. Təzə üzüm su, təbii şəkərlər, vitamin və mineral maddələrlə zəngindir. Bu xüsusiyyətlərinə görə üzüm süfrələrdə həm dadına, həm də qida dəyərinə görə xüsusi yer tutur.

Amma süfrəyə gələn bir salxımın arxasında görünməyən böyük bir zəhmət dayanır. Üzümün yetişməsi yalnız Günəşin işığı ilə başa gəlmir. Torpağın hazırlanması, suvarma, gübrələmə, bitkinin xəstəlik və zərərvericilərdən qorunması, yaşıl budama və məhsulun vaxtında yığılması bir-birini tamamlayan işlərdir. Bağda yetişən hər salxım, əslində, aylarla davam edən qulluğun nəticəsidir.

Naxçıvanda üzüm mövsümünün qızğın çağında belə mənzərələrə daha çox rast gəlinir. Üç hektarlıq üzüm təsərrüfatının sahibi Şirxan Rüstəmov da il ərzində çəkdiyi zəhmətin bəhrəsini



artıq görür. O qeyd edir ki, təsərrüfatda qırmızı kişmişi, ağ kişmişi, qızıl üzüm, inəkəmcəyi, qara üzüm və keçiəmcəyi kimi müxtəlif üzüm sortları yetişdirilir. Hər sortun öz görünüşü, dadı və istifadəsi var. Bəziləri təzə halda süfrəyə yol alır, bəziləri isə qurudularaq kişmişə çevrilir. Təsərrüfatçının sözlərinə görə, bu il üzüm mövsümü normal keçir. Hava şəraitinin də yaxşı keçməsi məhsula müsbət təsir göstərib. Təsərrüfatdan təxmini bir hektardan orta hesabla 2 ton məhsul götürülür. Şirxan Rüstəmov qeyd edir ki, üç hektarlıq sahəyə qulluq etmək asan deyil. Xüsusilə suvarma və yaşıl budama çox zəhmət tələb edir. İl ərzində əkin, dərmanlama, suvarma və yaşıl budama işləri aparılır. Budaqların vaxtında budanması, torpağın və bitkinin ehtiyacına uyğun suvarılması, xəstəlik və zərərvericilərdən qorunması məhsulun keyfiyyətinə təsir edən əsas amillərdəndir. Bağda yetişən məhsulun əsas ünvanı bazardır. Təzə halda satışa çıxarılan üzümün bir hissəsi isə sonradan müxtəlif məhsullara çevrilir.

Üzümçülüklə məşğul olmasının əsas səbəbini bu sahəni sevməsi ilə izah edir. Bu gün üzümçülük onun üçün dəyərli sahələrdən birinə çevrilib. Üzümçülüyə marağın son illərdə artdığını deyən təsərrüfatçı bu sahənin inkişafı üçün, ilk növbədə, su təminatının yaxşılaşdırılmasını və dövlət dəstəyinin davam etdirilməsini vacib hesab edir. Subsidiya almaq imkanı yarandığı təqdirdə isə təsərrüfatını daha da genişləndirmək niyyətindədir.

Bağdan ayrılarkən bir qədər əvvəl diqqətimi çəkən salxımlara yenidən baxıram. Günəş şüaları altında parıldayan yetişmiş gilələr indi mənə yalnız gözəl bir mənzərə kimi görünmür. Hər salxımın arxasında aylarla davam edən qulluq, gözləmə və səbir var. Təbiətin verdiyi imkanlar insan əməyi ilə tamamlananda isə bağ öz bəhrəsini göstərir. Bəlkə də, bu mənzərənin ən gözəl tərəfi elə budur – yetişən hər salxım bir mövsümün deyil, bütöv bir ilin zəhmətini özündə daşıyır.

✍ Səmayə RƏSULOVA



# Naxçıvanlı şahmatçılar beynəlxalq turnirdə uğurlu nəticələr əldə ediblər

Türkiyənin Malatya şəhərində 24-29 avqust tarixlərdə keçirilən 9-cu Beynəlxalq "Altın Kayası" şahmat turnirinə yekun vurulub. 17 ölkədən 625 idmançının qatıldığı turnirdə Naxçıvan şahmatçıları da uğurla çıxış ediblər.

Yarışın "A" kateqoriyasında Sadiq Məmmədov, Mirsaleh Seyidli və Yasin Əzimov, "B" kateqoriyasında isə Hüseyn Qənbərli və Nigar Qənbərli Naxçıvanı təmsil ediblər.

Yekun nəticələrə əsasən "A" kateqoriyasında Yasin Əzimov 6,5 xalla 4-cü, Sadiq Məmmədov isə 6 xalla 7-ci yeri tutaraq mükafatçılar sırasında yer alıblar.

"B" kateqoriyasında mübarizə aparan Hüseyn Qənbərli isə 7,5 xal toplayaraq turnirin qalibi olub. Şahmatçımız, həmçinin 0-1549 reytinq intervalında bütün rəqiblərini geridə qoyaraq 1-ci yerə layiq görülüb və əlavə mükafat qazanıb.



## Elanlar

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200746511) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200878081) ilə birləşmə yolu ilə yenidən təşkil olunduğunu elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 20 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42A, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Naxçıvan Uşaq Bərpa Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0200364601) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 20 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42A, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Naxçıvan Əlillərin Bərpa Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0200405281) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 20 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42A, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0200572741) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 20 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42A, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0201068691) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 20 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42A, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200878081) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200746511) ilə birləşmə yolu ilə yenidən təşkil olunduğunu elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 20 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, AZ7000***
***Telefon: (+99436) 550-53-81***
***E-mail: info@nits.gov.az***

***

Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsi Naxçıvan şəhərinin estetik görünüşünün yaxşılaşdırılması, şəhər infrastrukturunun müasir tələblərə uyğun saxlanılması və abadlıq işlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə Naxçıvan şəhəri, Nizami küçəsindən 8-ci küçəyə gedən yolda (Bazar gölündən Qızlar bulağı istiqamətində olan yol) döşəmə yolun bərpası, zədələnmiş bordür və səki daşlarının yenilənməsi və uçmuş divarın bərpası işlərinin həyata keçirilməsi üçün müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyən şirkətlər 04.09.2026-cı il tarixdən 09.09.2026-cı il tarixədək Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinə müraciət edə bilərlər.

***Ünvan: Kazım Talıblı küçəsi, ev 20***
***Tel: 050-633-21-01***

## İtmişdir

Culfa rayonu, Bənəniyar kənd sakini, İbrahimov İbrahim Zelov oğluna məxsus Culfa rayonu, Bənəniyar kəndində yerləşən JN-40B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Qasımov Ədalət Qasım oğluna məxsus JN-980A nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kənd sakini Qaybalıyev Zamin Rəhim oğlunun adına olan 74-BD-066 nömrəli avtomobilin BD-791775 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Novruzov Ədalət Məhəmməd oğluna məxsus BD-882149 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Zeynalov Valeh İsa oğluna məxsus Naxçıvan şəhəri, H.Aslanov küçəsi, döngə 6, ev 7B ünvanında yerləşən fərdi yaşayış evinə məxsus 4109 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Hacıyev Ağa Rəsul oğlunun adına olan JN-65A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Xoşkeşin kəndində yaşamış Novruzova Pəri Əli qızının adına olan JN-112A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-81 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Quliyev İlyas Qəhrəman oğlunun adına olan JN-669A nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Aşağı Əndəmic kənd sakini Nəsirov Əbil Şəmil oğlunun adına olan JN-189B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini İbrahimova Səmayə Həsən qızına məxsus JN-881A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Bayramov Rafiq Hüseyn oğluna məxsus JN-34A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Əliyeva Bəsirə Əli qızına məxsus 102013008094 reyestr nömrəli torpağın plan ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Quliyev Məmməd İsmayıl oğluna məxsus JN-45 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kəndində yaşamış Hüseynova Süräyya Mənsum qızının adına olan JN-221B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində Axundov Abış Dadaş oğlunun adına verilmiş JN-207A, JN-207B və JN-207C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

"Şərq qapısı" qəzetinin kollektivi akademik İsmayıl Hacıyevə qardaşı **Şamil HACIYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***

Naxçıvan Dövlət Universitetinin baş müəllimi Sevinc Rzayeva universitetin baş kitabxanaçısı Natiqə Xəlilovaya xalası **Rəhilə ABDİNOVANIN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ŞƏRQ QAPISI
**Baş redaktor:** RƏMZİ TAHİRLİ

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 185

*Nömrəyə məsul:* Ramiyə Əkbərova, Əli Cabbarov
*Dizayner:* Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.